www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-12 noyabr 2025-ci il Şənbə № 204 (8814) Qiymәti 60 qəpik

**Xəbər**

## Əsgərlərimizə şad xəbər - 2026-cı ildən...

yazısı səh.11-də

**Gündəm**

### "Yeni Müsavat" 36 yaşında




Rauf Arifoğlu: "Azərbaycan nələrdən keçibsə, "Yeni Müsavat" da o mərhələdən keçib"

yazısı səh.3-də

### "Bakı, Ankara və İrəvan eyni tərəfə baxır..." - Bəs Moskva?

yazısı səh.8-də

### Paşinyan Göyçədən danışdı və... çaşdı - Bakıdan sərt cavab

yazısı səh.10-da

### Trampdan yeni Zəngəzur açıqlaması - İki paytaxta mesaj

yazısı səh.8-də

### Bu ölkə də "Rus evi"ni bağladı

yazısı səh.5-də

### Dəhlizdə işlər sürətlənib - Əməkdaşımızın səfər qeydləri

yazısı səh.12-də

### Vardanyanın Bakıdan sarsaq çağırışı - Maddəsi ağırlaşa bilər

yazısı səh.10-da

### Ən çox silah aldığımız ölkələr - İlk üçlükdə onlardır

yazısı səh.13-də

### Gümrüdən 3 ölkənin müstəqilliyinə "atəş"

yazısı səh.6-da

### Kremlin qorxulu röyası çin olur - Çin buna getsə...

yazısı səh.14-də

### "Ana aliment ödəməz" ifadəsi keçmişdə qaldı - Sosioloqdan çağırış

yazısı səh.15-də

# ZƏFƏRİMİZİN 5 YAŞI - BU GÜN MÖHTƏŞƏM HƏRBİ PARADDIR

8 Noyabr regionda yeni düzənin formalaşmasının başlanğıcıdır; Qarabağın azadlığına həsr olunan tədbirə sınanmış müttəfiqlərimiz - Türkiyə və Pakistan liderləri də qatılacaq




yazısı səh.9-da

## "Onkoloji xəstələrin pulu artırılsın..." - Komitə sədrindən mühüm təklif və reaksiya

Ölümlə döyüşən bu xəstələrin sayı ilbəil artır, ayrılan vəsait isə...; icbari tibbi sığortanın vəsaiti hesabına bu sahəyə əlavə qayğı göstərilməsinə çağırış edildi

yazısı səh.11-də



Qüdrət Həsənquliyev

### "Ermənistan əməl etməsə, dəhlizi Azərbaycan özü açmalıdır"

yazısı səh.7-də



Xəlil Şirqulami

### Şirqulami Sobhani yolu gedəcək, yoxsa... - Bakının gözləntisi

yazısı səh.4-də



### Bu stadion Qurban Qurbanovun adını daşıyacaq? - Təklif

yazısı səh.13-də



## İlham Əliyevdən bu hərbçilərlə bağlı sərəncam

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələr verilib. Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.**

**Sərəncama əsasən, aşağıdakı hərbi qulluqçulara ali hərbi rütbələr verilib:**

*“general-leytenant” ali hərbi rütbəsi*
*general-mayor Kənan Əlihüseyn oğlu Seyidova*
*general-mayor Ağamir Əzizxan oğlu Sultanova*
*“general-mayor” ali hərbi rütbəsi*
*polkovnik Zaur Qəzənfər oğlu Yusifliyə*
*polkovnik Ümüdvar Əzizalı oğlu Quliyevə*
*polkovnik Anar Tofiq oğlu Hüseynova*
*polkovnik Etibar İsmayıl oğlu Məhərrəmova*
*“kontr-admiral” ali hərbi rütbəsi*
*1-ci dərəcəli kapitan Şahin Oruc oğlu Məmmədova.*

## Vaqif Qurbanova Milli Qəhrəman adı verildi



**Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin ilk hərbi təyyarəçisi baş leytenant Qurbanov Vaqif Bəxtiyar oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

Qeyd edək ki, baş leytenant Vaqif Qurbanov Birinci Qarabağ müharibəsi zamanı 1992-ci ildə şəhid olub.

## Pəncəli Teymurova Milli Qəhrəman adı verildi



**Gizir Pəncəli Nurməmməd oğlu Teymurova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.**

Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmiş gizir Pəncəli Teymurov Aprel döyüşlərində şəhid olub.

## Onlar general-leytenant oldular



Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələr verilib. Müdafiə Nazirliyinin Əlahiddə Ümumqoşun Ordusunun Komandanı general-mayor Kənan Seyidova və Raket və Artilleriya Qoşunlarının komandanı general-mayor Ağamir Sultanova general-leytenant ali hərbi rütbəsi verilib.

# Deputat: “Quru sərhədlərinin açılmasına ehtiyac var”




**8 avqust tarixli Vaşinqton Zirvə görüşündə sülh sazişinin mətninin paraflanmasından sonra Azərbaycanla Ermənistan arasında xeyli müsbət addımlar atılıb. Buna nümunə kimi Azərbaycanın Ermənistana yüklərin tranziti ilə bağlı məhdudiyyətləri aradan qaldırmasını göstərmək olar. Ötən gün taxıl yüklü qatar Azərbaycandan keçməklə Ermənistana gedib.**

Bu addım karantin səbəbilə bağlı qalan quru yollarının açılması məsələsini yenidən gündəmə gətirib.

Modern.az-a açıqlamasında deputat Hikmət Babaoğlu bildirib ki, iqtisadi əlaqələrin sülhü möhkəmləndirən hadisə olmasına şübhə yoxdur: “Ermənistanla Azərbaycan arasında artıq elə bir mərhələyə gəlib çatmışıq ki, qarşılıqlı etimad və sülh üçün əsas yaradan iqtisadi münasibətləri bərpa etməliyik. Azərbaycanın Ermənistana Qazaxıstan taxılının ölkəmizdən tranzit keçməklə bağlı məhdudiyyətləri aradan qaldırması kimi addımlar regional sülhə xidmət edir. İnteqrasiya həm də quru sərhədlərində mövcud olan məhdudiyyətlərin aradan götürülməsini zəruri edir. Bu, təkcə Azərbaycan-Ermənistan münasibətləri kontekstində yox, bütövlükdə digər qonşularla da quru sərhədləri əlaqəsinin bərpasını zəruri edir. Quru sərhədlərinin açılması iqtisadiyyatın, sərhədyanı ticarətin canlanması, rifahın artması deməkdir. Buna ehtiyac var. Bizim bildiyimiz və bilmədiyimiz səbəblərdən quru yollarının açılmasına qoyulmuş məhdudiyyətlərin aradan götürülməsi üçün optimal müddətdə qərar verilə bilər. Mənə elə gəlir ki, belə bir qərar verilməlidir. Çünki nəticə etibarilə, bütün hallarda quru sərhədlərinin açılması həm mədəni, həm turizm, həm də iqtisadi mübadilənin, əməkdaşlığın dərinləşməsinin şərtlərindən biri kimi çıxış edir”.

Deputat vurğulayıb ki, quru sərhədlərinin açılması bütövlükdə Azərbaycan Prezidentinin çağırışları kontekstində də çox lazımlı məsələdir: “Azərbaycan Prezidenti İlham Əliyev AMEA-nın 80 illik yubileyində maraqlı və çox vacib məsələyə toxundu. Bizim sərhədlərimizin o tayında yaşayanlar da azərbaycanlılardır, onlar da öz ölkələrinin layiqli vətəndaşlarıdır. Doğrudan da, quru sərhədlərimizdən kənarda yaşayan azərbaycanlılar da, onların vətəndaşı olduğu ölkələr də Azərbaycanla iqtisadi əlaqələrin, turizm mübadilələrinin olmasında maraqlıdır. Bu da məncə, sərhədlərin açılmasını şərtləndirən əsas amillərdən biridir. Düşünürəm ki, quru sərhədlərinin açılması bütövlükdə Azərbaycan Prezidentinin bütün bu çağırışları kontekstində çox lazımlı məsələdir”.

## Koti məsuliyyətə cəlb olundu

**Sosial şəbəkələrdə “Koti” kimi tanınan fenomen məsuliyyətə cəlb olunub. Teleqraf xəbər verir ki, o, qanunsuz qumar oyunlarını təbliğ etdiyi üçün məhkəmə önünə çıxarılıb.**

Nərimanov Rayon Məhkəməsində keçirilən prosesdə 25 yaşlı tiktoker özünü təqsirli bilərək əməlini etiraf edib. O, 2023-2025-ci illərdə özünə məxsus instaqram hesabında qanunsuz mərc saytlarını reklam etdiyini, bunu bir daha təkrarlamayacağını bildirib.

Hakim Tural Musayevin sədrliyi ilə keçirilən prosesdə “Koti” İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci maddəsi üzrə təqsirli bilinib və o, 600 manat məbləğində cərimə edilib.

Qeyd edək ki, onunla bağlı protokolu Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərtib edib.

## Ombudsmandan MAXE-lərlə bağlı vacib təklif



**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva 2026-cı ilin dövlət büdcəsi layihəsinə rəyində hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı təkliflər irəli sürüb.**

Modern.az xəbər verir ki, təklif parlamentin bir neçə komitəsinin ortaq iclasında “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı bildirilib.

Ombudsman qeyd edib ki, hərbi qulluqçuların sosial müdafiəsinin daha da yaxşılaşdırılması məqsədilə onlara ərzaq üçün ödənilən aylıq pul kompensasiyasının məbləği “minimum istehlak səbətinin tərkibi”ndəki ərzaq məhsullarının aylıq dəyərinə uyğunlaşdırılmalıdır.

Bununla yanaşı, Səbinə Əliyeva müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına ödənilən müavinətin məbləğinin ölkə üzrə uşaqlar üçün müəyyən edilmiş yaşayış minimumuna uyğunlaşdırılmasının da vacibliyini vurğulayıb.

## Zəfər Gününün havası belə olacaq

**Noyabrın 8-də gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-14, gündüz 17-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət isə 70-80 % təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-13, gündüz 19-24, dağlarda gecə 0-5, gündüz 8-13 dərəcə isti olacaq.

## Vəhdət Partiyasının təşkilat sədri həbs edilib

**Azərbaycan Vəhdət Partiyasının (AVP) Abşeron rayon təşkilatının sədri həbs olunub. Təşkilat rəhbəri 10 nəfərə qarşı dələduzluqda ittiham edilir.**

Teleqraf xəbər verir ki, 1987-ci il təvəllüdlü Rasim Xudaverdiyev Cinayət Məcəlləsinin dələduzluq ittihamı ilə təqsirli bilinərək həbs edilib. İş üzrə zərərçəkmiş şəxslərin sayı 10 nəfərdir.

İttihama görə, Rasim Xudaverdiyev pul aldığı şəxslərə sosial yardım düzəltmək, işə qəbul etdirmək, həbsdə olan şəxsi azadlığa çıxarmaq və universitetə qəbul etdirmək kimi vədlər verib.

Zərərçəkmiş şəxslərin ifadələrindən məlum olub ki, Rasim Xudaverdiyev onlarla partiyanın Abşeron rayon təşkilatının Xırdalanda yerləşən ofisində görüşüb. O, nüfuzlu şəxslərlə yaxın əlaqələrinin olduğunu, deputatlığa namizədliyini irəli sürdüyünü deyərək zərərçəkmiş şəxslərin etibarını qazanıb.

Cinayət işi materiallarında qeyd edilib ki, Xudaverdiyev müxtəlif vədlərlə vətəndaşlardan 4 000-10 000 manat məbləğlərində pul alaraq onları aldadıb.

Xudaverdiyev ifadəsində özünü qismən təqsirli bildiyini deyib, zərərçəkmiş şəxslərin bəzilərindən aldığı pulları etiraf edib. Digər epizodların isə mülki xarakter daşıdığını bildirib. O, zərərçəkənlərin pulunun bir hissəsini ödədiyini, qalan məbləği ödəməyə maddi imkanının olmadığını deyib.

Abşeron Rayon Məhkəməsinin hökmü ilə Rasim Xudaverdiyev 3 il 3 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Azərbaycan Vəhdət Partiyasının qurucusu keçmiş deputat Tahir Kərimlidir. Hazırkı sədr Adəm İsmayıl Bakuvidir.

YENİ MÜSAVAT
N 204 (8814) 8 noyabr 2025






# "Yeni Müsavat" 36 yaşında - Azad sözün doğulduğu gün

## Rauf Arifoğlu: "Azərbaycan nələrdən keçibsə, "Yeni Müsavat" da o mərhələdən keçib"
## Rəşad Məcid: "Rauf Arifoğlu mətbuatımıza nüfuz gətirən şəxslərdəndir"

**10 noyabr Azərbaycan mətbuat tarixində, sadəcə, bir tarix deyil. Həmin gün "Yeni Müsavat" qəzetinin mövlud günüdür. 1989-cu ilin məhz bu günündə qəzet ilk sayını Azadlıq meydanında yayımladı, xalq hərəkatının içindən doğmuş azad sözün carçısına çevrildi.**




"Yeni Müsavat" eyni adlı partiyanın - Azərbaycan Milli Demokrat Partiyası "Yeni Müsavat"ın (AMDP) qeyri-formal yayın orqanı kimi, təşkilatın qurucu katiblərindən biri, baş redaktor Rauf Arifoğlu tərəfindən yaradıldı.

O dövr üçün belə bir addım atmaq - yəni müstəqillik uğrunda mübarizə aparan bir partiyanın adını daşıyan qəzet yaratmaq - təkcə jurnalistlik fəaliyyəti deyildi, eyni zamanda, risk, cəsarət və vətəndaşlıq nümunəsi idi. Çünki bu, sovet imperiyasının hələ dağılmadığı, senzuranın hər sətirdə hökm sürdüyü bir dövr idi.

1988-1991-ci illərin Milli Azadlıq Hərəkatı Azərbaycan tarixinin ən parlaq, ən gərgin mərhələsi idi. Xalq SSRİ-nin zəncirlərini qırmaq, öz istiqlalını qazanmaq uğrunda ayağa qalxmışdı. O zaman meydanlar həm xəbər mərkəzi, həm sosial şəbəkə, həm də tribuna idi. Hər mitinq, hər çıxış o dövrün "Facebook postu", "Telegram kanalı", "TV xəbəri" rolunu oynayırdı.

Məhz belə bir dövrdə "Yeni Müsavat" kimi qəzetlərin yaranması tarixi zərurət idi. "Yeni Müsavat" ilk dəfə meydan tribunalarında səslənən azadlıq ideyalarını, xalqın səsini kağıza köçürən, onu sənədləşdirən, yaymaq üçün riskə gedən "samizdat" jurnalistikası nümunəsi oldu. Qəzetin yaranması həm də sözün meydanlardan redaksiyalara keçidi idi. O, Azərbaycanın gələcək azad mətbuat mühitinin bünövrəsini qoydu. Senzuranın hökm sürdüyü bir zamanda qəzetin yayımı qanunsuz hesab olunurdu, amma xalqın baxışında "Yeni Müsavat" əlbəttə ki, qanuni idi...

"Yeni Müsavat" Media Qrupunun təsisçisi və rəhbəri Rauf Arifoğlu həmin günləri xatırlayaraq deyir: "Məqsədimiz gerçəkləri xalqa çatdırmaq idi. Lakin həmin zamanlarda kommunist partiyasının iradəsinin kənarında qəzet buraxmaq bir cinayət əməli hesab olunurdu. Buna görə də "Yeni Müsavat"ın fəaliyyəti gizli qurulmuşdu və ilk nömrədən etibarən, sovet hakimiyyətinin Bakıdakı orqanları tərəfindən təqib altına alındı. Məsələni ciddiləşdirən ən önəmli məqamsa qurduğumuz qəzetin adında idi. "Müsavat" adı illərlə sovet təbliğat maşını tərəfindən vurulmuş, ictimaiyyətə düşmən və xain obrazlarda təqdim olunmuşdu. Azərbaycanda Müsavat adı hakim kommunist partiyasına qarşı meydan açmaq, onu devirmək, yeniləmək çağırışına bərabər idi. Təqib olunan redaksiyamız məhz Bakıdakı dözülməz mühit səbəbindən quruluşunun ilk ayında və 1-ci sayı dərc olunan kimi Gəncə şəhərinə köçdü. Qəzetin redaksiyası 1991-ci ilin ortalarına qədər Gəncə şəhərində, Bala Bağman bölgəsində fəaliyyət göstərdi.

1991-ci ilin dekabr ayında isə Elçibəyin AXC-nin Sahil Bağı ətrafındakı qərargahında ayırdığı iki otaqda redaksiya qurараq, fəaliyyətimizi paytaxtda davam etdirdik. Elə həmin tarixlərdən - qəzetimizin quruluşunun ilk dövrlərindən etibarən Azərbaycanda 1-ci Qarabağ müharibəsi başladı. "Yeni Müsavat" qəzetinin və partiyasının üzvləri də Gəncə ətrafında gedən döyüşlərdə aktiv iştirak etdilər. Gəncənin ilk şəhidləri də məhz AMDP "Yeni Müsavat" partiyasından oldu. Bəxtiyar Əliyev, Abbasqulu Məmmədov, Ruzigar Qasımov AMDP "Yeni Müsavat"ın Gəncə təşkilatının qurucularından idilər".

Baş redaktorun sözlərinə görə, qəzetin və onun yazarlarının taleyinə 28-29 il məğlubiyyət və milli faciələrin yazarlığı düşüb. Bütün qaynar nöqtələrdə olan "Yeni Müsavat"çılar könüllü döyüşçülərlə birlikdə döyüş meydanlarında, səngərlərdə olsalar da, o zamanın şərtləri altında elə həmin könüllülərlə birgə geri çəkilmələri və ağır məğlubiyyətləri yaşayıblar. Məsələn, qəzetin qurucu baş redaktoru Rauf Arifoğlu yazır ki, o, 14 may 1992-ci ildə Laçından ən son çıxan jurnalistlərdən olub. Zamanın bütün jurnalistləri məğlubiyyət acısını və ağrısını yaşayaraq, illərlə Qarabağ savaşının, milli revanşın başlamasını gözləyiblər.

Tale elə gətirdi ki, qəzetin qismətinə qalibiyyətdən, Zəfərdən, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən yazmaq da nəsib oldu. Rauf Arifoğlu bu haqda belə deyir: "Yeni Müsavat qəzetinin 36 illiyinə vardıq. Tələtümlü, gərgin, həyəcanlı, içərisində iki vətən müharibesi olan 36 il düşünün. Azərbaycan, vətənimiz, informasiya məkanımız nələrdən keçibsə, "Yeni Müsavat" da o mərhələdən keçdi, yazdı, salnaməçi və iştirakçı oldu. Bəzi hallarda yön verdi. İndi Azərbaycanımızın ən gözəl vaxtlarını yaşayırıq. 5 il bundan öncə, Zəfərimizə qədər Xankəndinin, Şuşanın, Kəlbəcərin xəyalını edirdiksə və onunla bağlı yazılar yazırdıqsa, insanlarımızı, oxucumuzu təslim olmamağa, məğlubiyyətlə barışmamağa çağırırdıqsa, indi isə Şuşamızdan, Qarabağımızdan, Xankəndidən, Xocalıdan reportajlar hazırlayırıq.

Əslində çox xoşbəxtik, 36 illik bir prosesi görən mediayıq. Bizim üçün yekun yoxdur. Jurnalistin informasiya günü qapanmır, hər an yeni informasiya günü başlayır. Bu, yeni proses, yeni həyəcan və yeni xəbər, yeni reportaj və yaradıcılıqdır. Zəfərimizin 5 ilinin yubileyi qeyd olunduğu bu günlərdə "Yeni Müsavat"ın da 36 illiyini qeyd edirik. "Yeni Müsavat"ın Zəfərdən sonrakı halını, 5 ilini görməkdəyik. Bizə Zəfər, qələbə yaraşırmış. Vətənimizin suverenliyi təmin olunub. Lakin bizim klassik torpaqlarımız - İrəvanımız, Göyçə gölümüz, Zəngəzur dəhlizimiz var. Biz jurnalist, vətəndaş olaraq bu istiqamətə yönəlik fəaliyyət planı qurmaqdayıq.

Bizim üçün gələcək bir saniyə sonradan başlayır. Olduqca möhtəşəm nəticələrimiz var. "Yeni Müsavat" qəzeti ilə başladığımız fəaliyyətimiz artıq Azərbaycanın, dünyanın bütün Azərbaycandilli və rusdilli məkanlarına daşınır. Bizim 700 min izləyicisi olan "Tik Tok" səhifəmiz, 500 minlik "Youtube" kanalımız", "Minval" adlı yeni brendimiz var ki, rusdilli və Azərbaycandilli məkanda öz sözünü demiş vəziyyətdədir. Musavat.com saytımız var ki, yaşı 20-lərdən də yüksəkdədir. Biz sosial mediaya inteqrasiya olunmuş vəziyyətdəyik. "Yeni Müsavat" verilmiş texnoloji imkanlardan ən uğurlu istifadə edən yeganə qəzetdir. Biz yeniləndik, böyüdük. Bizim klassik qəzetçilərimiz bu gün Nyu-medianın başındadırlar və transformasiyanın nümunəsini göstərirlər. Bizi oxuyan və izləyən hər kəsə böyük uğurlar arzulayıram".

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcidə görə, 36 yaşlı "Yeni Müsavat" qəzetində Azərbaycan mətbuatının tarixi, eyni zamanda, xalqın keşməkeşli dövrünün bütün prosesləri öz əksini tapıb: "Yeni Müsavat" həm də jurnalist məktəbi olub və bu qəzetdə ilk qələm təcrübələrini keçmiş jurnalistlər indi müxtəlif yerlərdə çalışır və onların əməyi hədsiz hörmətə malikdir. "Yeni Müsavat" qəzet kimi fəaliyyətə başlasa da bu gün müasir texnologiyalardan geri qalmır, televiziya, sayt və digər sosial proqramlarda fəaliyyət göstərir, öndədir. Onun rəhbəri Rauf Arifoğlu Əməkdar jurnalistdir və bu mükafatı ona Azərbaycan Prezidenti şəxsən təqdim edib.

Rauf Arifoğlunun hələ gənc yaşlarından necə dinamik olduğunu görmüşəm. O, hər zaman ilk olaraq qəzeti, informasiyanı düşünüb. Ümumiyyətlə, biz onunla dəfələrlə dünyanın bir çox ölkələrində səfərlərdə olmuşuq. Rauf Arifoğlu Azərbaycan mətbuatına nüfuz gətirən insanlardan biri olub. Mətbuat Şurası adından Rauf Arifoğlu başda olmaqla bütün kollektivi "Yeni Müsavat"ın 36 yaşı münasibəti ilə ürəkdən təbrik edirəm. Orda peşəkar və tanınmış jutnalistlər çalışır. Hamını ürəkdən təbrik edir, 40 illiyinizi birgə keçirməyi arzulayıram".

Bu gün Azərbaycan mətbuatında öz sözünü deyən neçə-neçə tanınmış jurnalist, redaktor və ictimai xadim məhz "Yeni Müsavat" məktəbinin yetirməsidir. Son 36 ildə "Yeni Müsavat" təkcə qəzet deyil, bir ideoloji brend olub. Bu ad həm partiya, həm qəzet, həm də xalq hərəkatının simvolu olaraq tarixə düşüb. Bu gün "Yeni Müsavat" həm qəzet, həm sayt və TV, həm də analitik platforma kimi fəaliyyətini davam etdirir.

"Yeni Müsavat" meydandan doğuldu, senzuranın qapılarını qırdı, azad sözün tarixini yazdı. Bu - təkcə bir qəzetin yox, ümumən azad, milli və müstəqil düşüncənin doğum tarixidir...

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Şirqulami Sobhani yolu gedəcək, yoxsa...

## İranın Ermənistana təyin etdiyi yeni səfirdən Bakının gözləntiləri var



**"Çox şadam ki, Naxçıvanın imkanları, o cümlədən iqtisadi sahədə olan potensialı ilə tanış ola bildim. Ötən 30 il ərzində İran-Azərbaycan münasibətlərinin, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə İran arasında əlaqələrin inkişafının dərinləşməsinin şahidi olmaqdan məmnunuq".**

Bu sözləri AZƏRTAC-a Naxçıvanda səfərdə olan İranın ölkəmizdə yeni təyin olunmuş səfiri Müctəba Dəmirçilu deyib.

Naxçıvanın iki ölkə arasında əlaqələrdə çox mühüm rolunun olduğunu vurğulayan diplomat hazırda muxtar respublikada həm iqtisadi, həm də digər sahələrdə böyük inkişafın əldə olunduğunu söyləyib. Azərbaycanın Qələbəsinin və işğal olunmuş torpaqların azad edilməsinin yeni imkanlar açdığını deyən diplomat sülhün, əmin-amanlığın əlaqələrimizin inkişafı üçün də geniş imkanlar yaratdığını söyləyib. Müctəba Dəmirçilu bildirib ki, bu gün bütün region bu yeni vəziyyətdən bəhrələnir. "Biz çalışmalıyıq ki, bu yeni şəraitdə yaranan imkanlardan səmərəli istifadə edib iki xalqı bir-birinə daha da yaxınlaşdıraq, iki dost və qardaş ölkənin əlaqələrini daha da dərinləşdirək", - deyə o əlavə edib.

Bu arada İran Gürcüstan və Ermənistana da yeni səfirlər təyin edib. Ölkənin xarici işlər naziri Abbas Əraqçi bildirib ki, Əli Mocani Gürcüstanda, Xəlil Şirqulami isə Ermənistanda səfir olacaq.

Yada salaq ki, Ermənistandakı səfir Mehdi Sobhaninin diplomatik fəaliyyəti başa çatıb. Sobhani vəzifədə olduğu müddətdə Azərbaycana qarşı təxribatçı açıqlamaları ilə yadda qalıb. Bəs nədən İranın İrəvandakı səfiri Azərbaycanla bağlı adətən pis, Bakıdakı səfir isə pozitiv danışır? Şirqulami tilsimi qıra biləcək?

Siyasi təhlilçi Sona Əliyeva sözlərinə görə, Mehdi Sobhani İranın radikal-mühafizəkar və milliyətçi kəsiminin nümayəndəsi idi: "O, İbrahim Rəisinin dövründən İrəvanda çalışırdı. Hətta keçmiş və mərhum xarici işlər naziri Əmir Abdullahianın yaxın dostu idi. Üstəlik, yaxın qohumlarının İrandakı ermənilərlə ortaq biznesinin olduğu bildirilirdi. Digər tərəfdən, azərbaycanlılara qarşı şəxsi kinin olduğu vurğulanırdı. Şirqulami isə indiki iqtidarın təmsilçisidir. Daha çox iqtisadi təfəkkürlü diplomat kimi özünü tanıda bilib. Maraqlı nüans ondan ibarətdir ki, "qulam" adı İranda daha çox Təbriz türklərinin istifadə etdiyi isimdir. Tarixi kökləri Səfəvilər dönəminə qədər gedib çıxır. Fikrimcə, Pezeşkian hakimiyyəti Ermənistan-Azərbaycan əlaqələrinin indiki durumunu nəzərə alaraq oraya türk kökənli hesab edilən Xəlil Şirqulamini göndərə bilər. Şirqulami daha çox Zəngəzur dəhlizi məsələsində İranın iqtisadi maraqlarını təmin etməyə fokuslanacaq. Mən belə düşünürəm. Əks təqdirdə, Tehranın bu layihədən də kənarda qalacağını yaxşı başa düşür".

Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyası İdarə Heyətinin üzvü, siyasi şərhçi Əli Zülfüqaroğlu açıqlamasında qeyd etdi ki, İranın Azərbaycan və Ermənistandakı səfirlərinin fərqli açıqlamaları İranın ənənəvi siyasətinin təzahüri idi.

Onun sözlərinə görə, mütərəqqi fikirləri ilə önə çıxan Prezident Məsud Pezeşkian hakimiyyətə gəldikdən sonra xarici siyasətdə fərqli yanaşmalar tətbiq etməyə çalışır: "Pezeşkian hesab edir ki, Tehranın ilk növbədə qonşuları, eyni zamanda Qərblə mənfi münasibətlərinin qalması və getdikcə dərinləşməsi İran üçün ciddi problemlər vəd edir. Həqiqətən də, Pezeşkianın bu yanaşması tamamilə reallığı əks etdirir. İranın Yaxın Şərqdə mövqelərini itirməsi və ciddi zərbələr alması, İsrail tərəfindən İranın imici üçün mənfi nəticələr doğuran hücumları Pezeşkianın nə qədər haqlı olduğunun göstəricisidir".

Əli Zülfüqaroğlu əlavə edib ki, Tehranın SEPAH tərəfindən müəyyənləşdirilən mühafizəkar siyasəti İran üçün çox ciddi problemlər yaradıb. Məsələn, İsrailin yer üzündən silinəcəyi ilə bağlı mütəmadi olaraq verilən bəyanatlar, əslində Qəzza məsələsinə qədər İsrailin güclənməsinə və istər beynəlxalq ictimai rəyin onun tərəfində olmasına, istərsə də əksər dövlətlərin ona limitsiz dəstəyinə gətirib çıxarmışdı. Ən əsası isə bu siyasi xətt ABŞ-nin İsrail tərəfindən İrana qarşı birbaşa müharibəyə cəlb edilməsi ilə bağlı əsaslar yaradıb. Halbuki Tramp hökuməti ABŞ ilə müharibəyə girməyin tərəfdarı deyil və bu səbəbdən də Tehranla diplomatik kanalları açıq tutmaqla, problemləri aradan qaldırmağa və bununla da sionist lobbinin Tramp üzərində təzyiqlərini neytrallaşdırmağa çalışır. Amma SEPAH-ın mühafiəkar siyasəti buna mane olur və ABŞ-nin maraqlarına zidd olduğu halda, İsrail və ABŞ-dəki sionist lobbiyə Trampa qarşı effektiv təzyiq kartları verir. Necə ki, bunu 12 günlük İsrail-İran müharibəsi zamanı ABŞ-nin görüntü xatirinə olsa belə, İranı bombalamağa məcbur qalması zamanı müşahidə etdik".

Siyasi ekspert əlavə edib ki, İranın durumu qonşu dövlətlərlə bağlı da ənənəvi siyasi xəttin dəyişməsi ilə yanaşı, daxildə də islahatların aparılmasını zəruri edir: "Ona görə də hesab edirəm ki, diplomatların dəyişdirilməsi bu məqsədə xidmət edir. Pezeşkian çalışır ki, real vəziyyətə adekvat siyasət yürütsün. İlk növbədə qonşu dövlətlərlə münasibətlər adekvat olsun, çünki bu ilk növbədə SEPAH-ın deyil, İranın dövlət maraqlarının tələbidir. Təbii ki, bu siyasətin effektiv olması və möhkəm dayaqlara sahib olması üçün daxili islahatlar da qaçılmazdır. Sosial ədalətin bərqərar olması, idarəetmə mexanizmində dəyişiklik, prezidentin güclü dayaqlara malik oması, həmçinin Azərbaycan türklərinin hüquqlarının bərpası və digər istiqamətlərdə addımlar qaçılmazdır. Və Prezidentin timsalında bunun ilk işartıları müşahidə edilir.

Əlbəttə, SEPAH-ın Pezeşkianın prezidentlik dönəminin ilk aylarında olduğu kimi, yenə də ona qarşı aqressiv təzyiqlər etməyə və qara piar aparmağa çalışacağı gözləniləndir. Amma hazırda Pezeşkian xalq tərəfindən sevilir və ona ictimai dəstək yüksək səviyyədədir. Bu da SEPAH-ın istər ona, istərsə də ali dini liderə qarşı təzyiqlərinin neytrallaşdırılmasına böyük ölçüdə imkan verir. Bu baxımdan hesab edirəm ki, Pezeşkian mütərəqqi ideyalarını həyata keçirməyə müvəffəq olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Ərdoğan: "Azərbaycanın nailiyyətləri regionu çiçəkləndirəcək"

**"İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun rifahına xidmət edəcək və Qafqazın qlobal siyasətdə strateji əhəmiyyətini daha da artıracaqdır".**

Musavat.com xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə göndərdiyi məktubunda bildirib. O qeyd edib ki, azad edilmiş vətən torpaqlarının sürətli dirçəlişi və yenidən qurulmasında əldə edilən irəliləyiş təqdirəlayiqdir.

"Bu əlamətdar günün ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci hesab etdiyi qardaş Azərbaycanın həm regionda, həm də ondan kənarda inamlı addımlarla nail olduğu irəliləyişin şahidi olmaqdan böyük qürur hissi keçirir. "Bir millət, iki dövlət" prinsipi ilə qurulmuş yüksəksəviyyəli münasibətlərimiz və öz gücünü ortaq taleyimizdən alan sarsılmaz qardaşlıq bağlarımız keçmişdə olduğu kimi, bu gün də möhkəmlənməkdə davam edir.

Güclü təməl üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və bütün sahələrdə nümayiş etdirdiyimiz xüsusi əməkdaşlıq regional sülhün, etimadın və sabitliyin ən vacib sütunlarından birinə çevrilmişdir.

Şübhəsiz ki, Sizin müdrik rəhbərliyinizlə can Azərbaycanın əldə etdiyi nailiyyətlər bundan sonra da regionumuzun çiçəklənməsinə əhəmiyyətli töhfələr verəcəkdir".



## Rəsmi Bakı: "Zəngəzur dəhlizi Ermənistana qarşı yönəlməyib"

**"Azərbaycanın Şərqi Zəngəzur bölgəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən dəhlizlə bağlı Azərbaycanın mövqeyi prinsipial olmaqla yanaşı, hüquqi əsaslara və regional əməkdaşlıq maraqlarına söykənir. Məlumdur ki, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndinə əsasən Azərbaycan ərazisinin qərb hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz hərəkət təmin edilməlidir".**

Bunu APA-ya müsahibəsində Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə deyib. "Biz dəfələrlə vurğulamışıq ki, Zəngəzur dəhlizi Ermənistanın suverenliyinə qarşı yönəlmiş addım deyil. Məqsəd yalnız beynəlxalq hüquqa və əldə edilmiş razılaşmalara uyğun şəkildə maneəsiz tranzit əlaqəsi yaratmaqdır. Hesab edirik ki, Zəngəzur dəhlizi regionun iqtisadi inteqrasiyasına və Orta Dəhliz çərçivəsində əlavə marşrutların formalaşmasına xidmət edəcək.

8 avqust Vaşinqton Sammitinin mühüm nəticələrindən biri Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" - TRIPP-dir. Birgə Bəyannamədə regionda kommunikasiyaların açılması çərçivəsində, Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsinin zəruri olduğu vurğulanıb", - XİN rəsmisi qeyd edib.

Ayxan Hacızadənin sözlərinə görə, ABŞ tərəfindən müvafiq nəqliyyat infrastruktur layihəsinin həyata keçirilməsi, təhlükəsizlik tədbirlərinin görülməsi və maneəsiz keçidin təmin edilməsi istiqamətində danışıqlar ABŞ-la Ermənistan arasında aparılır və tikinti işlərinə nə zaman başlanacağı hələlik məlum deyil: "Ancaq nəzərə alsaq ki, bu marşrut Azərbaycanın iki bölgəsini birləşdirəcək, ölkəmizin prinsipial mövqeyi həm ABŞ tərəfinə, həm də Ermənistan tərəfinə bildirilib.

Vaşinqton razılaşmalarına uyğun olaraq, sentyabrın 5-də Azərbaycan və Ermənistan Baş nazirlərin müavinlərinin rəhbərlik etdikləri nümayəndə heyətləri Azərbaycan və Ermənistan ərazilərinə qarşılıqlı səfər ediblər. Ərazidə nəqliyyat yolları və infrastruktur ilə tanış olublar. Bu dəhlizin qısa müddətdə açılmasında maraqlıyıq".

Ayxan Hacızadə onu da qeyd edib ki, bununla yanaşı, Qars-İğdır-Dilucu marşrutu üzrə 224 kilometrlik dəmir yolunun tikintisi istiqamətində əhəmiyyətli bir layihənin, strateji dəyəri olan yeni bir dəmir yolu layihəsinin əsası qoyulduğu məlumdur: "Hesab edirik ki, bu layihələrlə regionun logistika potensialı genişlənəcək və geostrateji əhəmiyyəti daha da artacaq".

Yeni MÜSAVAT
N 204 (8814) 8 noyabr 2025

# Bu ölkə də “Rus evi”ni bağladı - Bakının o qərarı...

## Azərbaycandan sonra digər ölkələr də bu addımı atmağa başlayıb - bərpası mümkündürmü?




**Moldova hökuməti Kişinyovdakı Rus Mədəniyyət Mərkəzinin (Rus Evi) bağlanmasını nəzərdə tutan qanun layihəsini təsdiqləyib. Hakimiyyət orqanları mərkəzi “Kremlin hibrid aləti” kimi təqdim edir.**

Moldova hökuməti Rusiya ilə 1998-ci ildə mədəniyyət mərkəzlərinin yaradılması məqsədilə bağlanmış müqaviləni ləğv edən qanun layihəsini qəbul edib. Qanun layihəsinin qüvvəyə minməsi üçün indi parlament tərəfindən təsdiqlənməlidir. Moldova Mədəniyyət Nazirliyi bu addım üçün mövcud geosiyasi vəziyyəti və dezinformasiya risklərini qeyd edib. Bəyanatda Rusiyada Moldova mədəniyyət mərkəzinin mövcud olmadığını, buna görə də mədəni təbliğat üçün ədalətli mexanizmin olmadığını bildirib.

Kremlin sözçüsü Dmitri Peskov qərarı “təəssüflə qarşıladıqlarını” bildirib və əlavə edib ki, “Moldova rəhbərliyi Rusiya ilə bağlı hər şeyi rədd edərək düşmənçilik siyasəti yürüdür”.

Peskov bildirib ki, bu cür yanaşma Moldova əhalisinin əhəmiyyətli hissəsinin maraqlarına ziyan vurur: “Moldova rəhbərliyinin ölkəmizə qarşı düşmənçilik etməyə, ölkəmizlə əlaqəli hər şeyi inkar etməyə davam etməsi, əhalinin əhəmiyyətli bir hissəsinin, bəlkə də, əksər hissəsinin maraqlarına xələl gətirməsi çox təəssüf doğurur. Bu, çox pisdir. Yalnız təəssüf ifadə etmək olar”.

Rusiyanın beynəlxalq əməkdaşlıq agentliyi olan “Rossotrudniçestvo” hələlik Moldovadan heç bir rəsmi bildiriş almadığını və “Rus Evi”nin normal fəaliyyətini davam etdirdiyini bildirib.

Kişinyovda Rusiya Elm və Mədəniyyət Mərkəzi (Rus Evi) 2009-cu ildə açılıb. Onun fəaliyyətlərinə rus mədəniyyətinin, təhsilinin və elminin təşviqi, rus dilinin statusunun gücləndirilməsi və gənclərin mübadilə proqramlarının təşkili daxildir. Mərkəzin bağlanması tələbi 2025-ci ilin fevralında dronların Moldovanın hava məkanını pozmasından sonra artıb. Moldova hakimiyyəti dronların Rusiyaya məxsus olduğunu bildirsə də, Moskva bu ittihamı rədd edirdi.

Məlumdur ki, “Rus evi” Bakıda da bağlanıb. Ancaq “Rossotrudniçestvo” ilə Azərbaycan hökuməti onun fəaliyyətinin bərpası istiqamətində danışıqlar aparır. Bu barədə ötən ay agentliyin rəhbər müavini Pavel Şevtsov “RİA Novosti”yə açıqlama verib. Şevtsovun sözlərinə görə, tərəflər konsensus tapmaq üçün əlaqə saxlayır və Rusiya ümid edir ki, Prezident Vladimir Putin və Prezident İlham Əliyev arasında keçiriləcək görüşün nəticəsində məsələ müsbət həllini tapacaq.

Son illər postsovet məkanında Rusiya ilə bağlı mədəni-humanitar layihələrə münasibətdə ciddi dəyişikliklər müşahidə olunur. Kreml tərəfindən “yumşaq güc” aləti kimi formalaşdırılan “Rus evləri” artıq bir çox ölkədə siyasi mübahisələrin və ictimai narazılıqların mərkəzinə çevrilib. Ukraynada müharibənin başlanmasından sonra bəzi dövlətlər bu qurumların fəaliyyətini milli təhlükəsizlik üçün risk kimi qiymətləndirirlər. “Rus evi” adlanan mərkəzlərin rəsmi məqsədi mədəniyyət, təhsil və dil sahəsində əməkdaşlığı təşviq etmək olsa da, onların siyasi və ideoloji təsir vasitəsinə çevrildiyi barədə fikirlər güclənib. Bu tendensiya təkcə, Avropa İttifaqına üzv dövlətlərdə deyil, Cənubi Qafqaz və Şərqi Avropa regionunda da müşahidə olunur. Xüsusilə, Azərbaycanın, Gürcüstanın və Moldovanın son qərarları göstərir ki, region ölkələri öz informasiya və ictimai məkanlarını xarici təsirlərdən qorumağa çalışırlar.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov vurğuladı ki, “rus evi” nin müxtəlif dövlətlərdə fəaliyyəti artıq neqativ qarşılanır, qəzəbə səbəb olur. “Yeni Müsavat”a açıqlamasında ekspert diqqətə çatdırdı ki, dövlətlər “rus evi”ni bağlamaqla qalmır, hətta qanunvericilik müstəvisində fəaliyyəti qadağan edilir: “Maraqlıdır ki, Azərbaycanda ”rus evi"nin bağlanmasından sonra müxtəlif ölkələrdə proses genişləndirildi. Moldova hökuməti “rus evi”nin fəaliyyətini qəbul etmir. Hətta Kişinyovdakı Rus Mədəniyyət Mərkəzinin bağlanmasını nəzərdə tutan qanun layihəsi təsdiqlənib. Moldovanın hazırkı siyasi esteblişmenti tamamilə Rusiya əleyhinə mövqedədir və Moldova prezidenti Maya Sandunun tərəfdarları dəfələrlə Rusiya əleyhinə bəyanatlarla çıxış ediblər. Son seçkilər kifayət qədər gərgin keçdi, hətta Rusiya seçkilərin nəticələrinə təsir gücünü özündə saxlamaq üçün əlindən gələni etdi. Lakin Sandunun daxildəki güclü tərəfdarları və elektoratı ona yenidən etimad göstərdilər".

Ekspertin sözlərinə görə, maraqlıdır ki, Düşənbədə Azərbaycan və Rusiya liderləri arasında görüşdən sonra münasibətlərin normallaşması barədə fikirlər söylənir: “Hazırkı reallıqda münasibətləri bərpa etmək üçün addımların atılması gözlənilir. Lakin əminliklə söyləmək olar ki, ”Rus evi", yaxud ona bənzər hər hansı institutlar, humanitar təşkilatlar yaradılsa da, əvvəlki dövrdə olan fəaliyyəti həyata keçirə bilməyəcəklər. Azərbaycan buna imkan verməyəcək. Müəyyən adlar altında hansısa təşkilatın yaradılması danışıqlar mövzusudur. Yaxın zamanda Azərbaycanın hər hansı təşkilatın yaradılmasına məqbul yanaşacağını düşünmürəm. Çünki hələ də bir sıra suallar var, ziddiyyətlər qalmaqdadır. Buna baxmayaraq, ikitərəfli münasibətləri yeniləmək önəmli məsələdir. Bütün bu yanaşmalar siyasi gedişatdan, Azərbaycanın prinsipial mövqeyindən, milli-siyasi iradəsindən asılıdır".

Onu da yada salaq ki, Qırğızıstanın Oş şəhərindəki “Rus evi”ndə işləyən Nataliya Sekerina respublikanın xüsusi xidmət orqanları tərəfindən saxlanılıb. Xarici medianın xəbərinə görə, bu barədə Bişkekin Pervomayski rayon məhkəməsi məlumat yayıb. “Bişkek şəhərinin Pervomayski rayon məhkəməsinin qərarı ilə təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə bağlı vəsatət təmin edilib”, - deyə məhkəmənin mətbuat xidməti bildirib. “Rus evi” (“Rossotrudniçestvo”) Rusiyanın xaricdəki mədəniyyət və informasiya mərkəzlərini təmsil edən qurumdur. Bu mərkəzlər Rusiya Federasiyasının yumşaq güc siyasətinin bir hissəsi kimi çıxış edir və müxtəlif ölkələrdə rus dilinin, mədəniyyətinin və təhsilinin təbliğinə yönəlib. Lakin son illərdə, xüsusilə də Rusiya-Ukrayna müharibəsindən sonra bu qurumun fəaliyyəti bir sıra ölkələrdə ciddi suallar doğurub və nəticədə bəzi ölkələrdə fəaliyyətinə son qoyulub. Əvvəlki dövrlərdə “Rus evi” bir sıra Avropa ölkələrində də fəaliyyətini dayandırmalı olub. Bu sırada, Sloveniya, Slovakiya, Xorvatiya, Şimali Makedoniya, Monteneqro, Rumıniyanın adını çəkmək olar.

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**

## Zatulin Bakıya qarşı yenə sayıqladı



**“Azərbaycanın NATO standartlarına keçidi çoxdan müəyyənləşdirilib”.**

Bakupost.az “Lenta.ru”-ya istinadən xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının MDB İşləri üzrə Komitəsinin sədr müavini Konstantin Zatulin bildirib. O, Azərbaycanın hərbi sahədə NATO standartlarına keçmək qərarını şərh edib.

Deputat açıqlamasında bu addımın gözlənilməz olmadığını bildirib. Onun sözlərinə görə, Bakı ilə Alyans arasındakı əməkdaşlıq artıq uzun müddətdir Türkiyə vasitəsilə həyata keçirilir.

“Faktiki olaraq Azərbaycanın Türkiyə ilə ortaq ordusu və birgə komandanlığı, həmçinin hərbi-siyasi ittifaqı mövcuddur. Buna görə də Azərbaycanın NATO standartlarına keçməsi barədə bəyanatına təəccüblənməyə əsas yoxdur”, - deyə Zatulin vurğulayıb.

Deputat əlavə edib ki, Azərbaycan artıq uzun müddətdir Rusiyadan asılı olmayan müdafiə və siyasi xətt yürüdür, Prezident İlham Əliyevin son bəyanatı isə illərdir praktikada mövcud olan vəziyyəti sadəcə, rəsmi şəkildə təsdiqləyib.



## Putin Lavrovun “qələmini qırdı”

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Təhlükəsizlik Şurasının 5 noyabr iclasını buraxan yeganə daimi üzvü olub.

Musavat.com xəbər verir ki, Kremlin açıqlamasına görə, onun iştirakı “razılaşdırılmış” şəkildə olmayıb, lakin bu, digər bir sıra diqqətçəkən vəzifədən kənarlaşdırmalarla üst-üstə düşüb.

Məlumata görə, Vladimir Putinin qərarı ilə əvvəllər G20 və ASEAN sammitlərinə rəhbərlik edən Lavrovun yerinə Rusiyanın nümayəndə heyətinə Maksim Oreşkin və Aleksey Overçuk rəhbərlik edəcək.

Mənbələr dəyişiklikləri Putinin və Donald Trampın Budapeştdəki görüşünün baş tutmaması ilə əlaqələndirirlər. Qərb mediasının məlumatına görə, görüş Lavrovun ABŞ dövlət katibi Marko Rubio ilə uğursuz danışığından sonra baş tutmayıb. Bundan sonra Vaşinqton Moskvanın danışıqlara hazır olmadığı qənaətinə gəlib.

Kremlə yaxın teleqram kanalları yazır ki, Putin Lavrovla sərt söhbət aparıb və XİN rəhbəri ilə bağlı xidməti yoxlama aparılır.

“Nezygar”ın məlumatına görə, Lavrov “ilk dəfə basqı altında görünür” və “Sergey Şoyqu yolu ilə gedərək” prezidentin etibarını tədricən itirir.



## Rus aktyor Donetskdə öldürüldü

Ukraynada rus aktyor, milis polkovnik-leytenantı Boris Polovinkin öldürülüb.

Musavat.com xəbər verir ki, o, “Uçastkovı Detektiv” serialında özəl detektiv Andrey Savelev obrazı ilə tanınırdı.

Rus KİV-lərinin məlumatına görə, Polovink bu ilin aprelindən itkin düşmüş hesab olunurdu. Sonradan müəyyən edilib ki, o, Donetsk vilayətinin Kurdumovka qəsəbəsi yaxınlığında məhv edilib.

1990-cı illərdə milisdə xidmət edən Polovinkin Çeçenistan müharibəsində iştirak edib və polkovnik-leytenant rütbəsinə qədər yüksəlib. 2025-ci ilin yazında o, yenidən müharibəyə, bu dəfə Ukraynaya yollanıb. Ukrayna dronu onun gizləndiyi sığınacağı vurub və nəticədə Polovinkin dörd digər hərbçi ilə birgə məhv edilib.



## Pezeşkiandan həyəcan təbili: “Tehran təxliyə olunmalıdır”

**“Tehranda artıq su yoxdur və dekabr ayından suyu kvota ilə verməyə məcbur olacağıq”. Bunu İran Prezidenti Məsud Pezeşkian deyib. “Suyu kvota ilə versək də, yağış yağmayacağı təqdirdə paytaxt təxliyə olunmalıdır”, - o bildirib. Bununla eyni vaxtda Tehran əyalətinin Su və Kanalizasiya Şirkəti paytaxtda su çatışmazlığının təhlükəli həddə çatdığı haqda xəbərdarlıq edib.**

İran dövlət mediasının verdiyi məlumata görə, paytaxt Tehran yaxın iki həftə ərzində içməli su mənbəyinin tükənməsi riski ilə üz-üzədir.

Paytaxtın su idarəsinin rəhbəri Behzad Parsa bildirib ki, şəhərin əsas su anbarı olan Əmir Kəbir bəndində hazırda “cəmi 14 milyon kubmetr su” qalıb. Bir il əvvəl bu rəqəm 86 milyon kubmetr idi. Parsa xəbərdarlıq edib ki, hazırkı səviyyədə bənd Tehranı “yalnız iki həftəlik” su ilə təmin edə bilər.

Son illərin ən ciddi quraqlıqlarından biri ilə üzləşən Tehranda bir yerli rəsmi oktyabr ayında yağıntı miqdarının “son yüz ildə görünməmiş dərəcədə az” olduğunu bildirmişdi.



## Mixaylov: “Rusiya anlayır ki, Azərbaycansız mümkün deyil”

**“Rusiya ilə Azərbaycan arasındakı münasibətlərdə sabitlik, şəffaflıq və dostluq bütün MDB və Avrasiya təhlükəsizliyi üçün vacibdir. Vladimir Putin və İlham Əliyev arasında Düşənbədə keçirilən görüşdən sonra münasibətlər yaxşılaşır və mürəkkəb məsələlərin həlli üçün qarşılıqlı addımlar atılır. Putin və Əliyevin Düşənbə görüşü liderlər arasında şəxsi münasibətlərin və onların səmimi təmaslarının bütün mürəkkəb məsələlərin həllinin açarı olduğunu nümayiş etdirdi”.**

Axar.az xəbər verir ki, bunu rusiyalı politoloq Yevgeni Mixaylov deyib.

“Rusiya anlayır ki, Azərbaycan ciddi regional oyunçudur və onun əməkdaşlığı olmadan regionda tam sabitlik və təhlükəsizlik ola bilməz. Rusiya ilə Azərbaycanın ortaq cəhətləri çoxdur. Rusiyada böyük bir Azərbaycan diasporu var, Azərbaycanda isə yaxşı inteqrasiya olunmuş böyük bir rus icması var və onun öz adət-ənənələrini və dinini qoruyub saxlaması üçün hər cür şərait yaradılıb. Rusiya və Azərbaycan qonşudur. Bizi Xəzər dənizi birləşdirir. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi də daxil olmaqla, genişmiqyaslı strateji layihələr həyata keçiririk və enerji sektorunda əməkdaşlıq edirik. Əməkdaşlıq potensialımız da genişdir. Bu gün Azərbaycan türk dünyasında mühüm rol oynayır və həm Qafqazda, həm də Orta Asiyada hörmətlə qarşılanır. Üstəlik, görürük ki, bu gün Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması üçün danışıqlar kifayət qədər uğurla gedir. Cənubi Qafqazda sülhün bərqərar olması Rusiya üçün vacibdir. "3+3" regional əməkdaşlıq formatının (üç Cənubi Qafqaz respublikası və onların üç böyük qonşusu - Rusiya, Türkiyə və İran) böyük potensialı var. Təbii ki, bu formatda qarşılıqlı əlaqə bütün iştirakçılar üçün böyük imkanlar açacaq. Azərbaycan və Ermənistan malların tranziti üçün ərazilərini qarşılıqlı olaraq bir-birinin üzünə açıb, o cümlədən rəsmi Bakı Rusiya mallarının Ermənistana tranzitinə razılıq verib. Bu həm də əməkdaşlığımızdakı müsbət tendensiyaları göstərir", - o bildirib.

# Gümrüdən 3 ölkənin müstəqilliyinə “atəş”

## Cənubi Qafqaz rus asılılığından necə qurtulacaq? - rəy

**Bu günlərdə Ermənistanın Gümrü şəhərindəki Rusiyanın 102-ci hərbi bazasında “Xalq Birliyi Günü” adı ilə geniş bayram tədbiri keçirilib. Tədbirdə Rusiyanın Ermənistandakı baş konsulu İqor Titov, hərbi baza rəhbərliyi, yerli məmurlar və Rusiyadan gəlmiş qonaqlar iştirak ediblər.**

Məlumata görə, tədbirdə xidmət fərqlərinə görə bir sıra hərbçilər mükafat, fəxri fərman və təşəkkür məktubları ilə təltif olunublar. Bəzi zabitlərə növbəti hərbi rütbələr təqdim edilib. Rusiya tərəfi bu mərasimi “iki xalqın dostluğunun simvolu” adlandırıb.

İqor Titov çıxışında bu xüsusda deyib: “Bu gün birlik təkcə hiss olunmur, o, Ermənistan torpağında daha da möhkəmlənir. Biz burada, qardaş ölkədə özümüzü evimizdə kimi hiss edirik”.

Bundan öncə Gümrüdəki hərbi şəhərciklərdən birində “Açıq qapı günü” təşkil olunub. Qonaqlar “Patriot” parkında nümayiş etdirilən hərbi texnika ilə tanış olub, orkestrin çıxışını izləyib, həmçinin Rusiya və Ermənistan mətbəxlərinə aid yeməklərdən dadıblar.

Bu cür tədbirlər şübhə yox ki, Rusiyanın Ermənistandakı hərbi varlığını bundan sonra da legitimləşdirməyə, onu “dostluq və birlik” çərçivəsində təqdim etməyə yönəlib. Halbuki faktiki olaraq Gümrüdəki Rusiya hərbi bazası Ermənistanın suverenliyinə, özəlliklə də Paşinyan hökumətinə ciddi təhdiddir.

Rusiya ordusu təkcə Ermənistan ərazisində mövcud olmaqla kifayətlənmir, həm də bu ölkənin Cənubi Qafqazdakı balans siyasətini öz xeyrinə yönəltməyə çalışır. Moskva üçün bu baza əslində regionda hərbi-siyasi təzyiq alətidir - həm Türkiyə, həm Azərbaycan, həm də Qərblə əlaqə qurmaq istəyən Ermənistan üçün.

Xatırladaq ki, 102-ci hərbi baza Türkiyə sərhədinə yaxın məsafədə yerləşir və təxminən 5000 hərbçi burada xidmət edir. Rusiya bu bazanı formal olaraq KTMT çərçivəsində “sülh və təhlükəsizlik təminatı” kimi təqdim etsə də, reallıqda o, Moskvanın bölgədə qalıcı təsirini qorumaq məqsədi daşıyır. Ekspertlərə görə, Rusiya bu baza vasitəsilə İrəvanı Cənubi Qafqazda müstəqil qərarlar verməkdən çəkindirir. “Ermənistanda rus birliyi hiss olunur” ifadəsi, faktiki olaraq, Ermənistanın öz milli kimliyinin və qərarvermə azadlığının təhdid altında olması mənasına gəlir.

Məlumdur ki, Azərbaycan ərazisində rus hərbçiləri yoxdur. Gürcüstanda da legitim Rusiya bazası mövcud deyil, yalnız işğal altındakı Abxaziya və Cənubi Osetiyada var.

Bəs Ermənistan rus asılılığından nə vaxt qurtulacaq, qurtula biləcəkmi və necə? Azərbaycan bundan necə təsirlənə bilər, hansı ön tədbirləri görməliyik?

“Alyans” Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov “Yeni Müsavat”a yada saldı ki, Rusiya prezidenti Vladimir Putin “bizim missiyamız Rusiya torpaqlarını toparlamaq və möhkəmləndirməkdir” deyib. Onun fikrincə, Ukraynaya qarşı işğalçı müharibə bu istiqamətdə atılan ilk addımdır: “Ukraynanı nəzarətə götürdükdən sonra Putin digər keçmiş sovet respublikalarında da daha da möhkəmlənmək və onları mümkün olsa qısa müddətdə bir vahid dövlət halında birləşdirmək istəyirdi. Ukraynada müəyyən uğurlar var, ancaq digər keçmiş sovet respublikaları Rusiyanın Ukraynada düşdüyü vəziyyətdən yararlanaraq ondan uzaqlaşmağa başladılar. Rusiya Azərbaycandan, demək olar ki, çıxdı və bu gün Azərbaycan Rusiyanın ən az təsir etdiyi müstəqil dövlət sayılır. Mərkəzi Asiya dövlətləri həm Çinə daha çox yaxınlaşdılar, həm də ABŞ və Avropa ilə əlaqələri gücləndirdilər. Ukrayna müharibəsi Rusiyanın bu addımlara qarşı çıxmaq imkanlarını xeyli məhdudlaşdırdı. Ermənistanda durum bir qədər fərqlidir. Ermənistanla Rusiya arasında 1995-ci ildə imzalanmış 102-ci hərbi bazanın Ermənistanda fəaliyyəti haqqında müqavilə var. Bu müqaviləyə görə hərbi baza 49 il ərzində, yəni 2044-cü ilə qədər Ermənistanda qalmalıdır. Vaxtından əvvəl çıxması üçün mütləq Rusiyanın razılığı olmalıdır. Bu, müqavilədə öz əksini tapıb”.

Mütəxəssisin sözlərinə görə, sərhədlərin birgə qorunması haqqında 1992-ci ilin 30 sentyabrında imzalanmış müqaviləyə əsasən, müddətsiz olaraq Ermənistanın İran və Türkiyə sərhədləri Rusiyanın nəzarətinə verilib: “Burada da Rusiyanın razılığı olmadan hansısa addımı atmaq çox çətindir. Ancaq Ermənistanda bu proseslər gedir. Rusiya da bunun qarşısını almaq üçün hələlik bütün ümidlərini gələn il keçiriləcək parlament seçkilərinə bağlayıb. Parlament seçkilərində öz tərəfdarlarının blok halında iştirak etməsinə cəhd göstərir, Ermənistanda az-çox nüfuzu olan bütün qüvvələri birləşdirməyə çalışır. Rusiya bununla Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq istəyir. Lakin Paşinyan mütləq qalib gəlməlidir və Rusiyanın planı pozulmalıdır”.

Abutalıb Səmədov qeyd etdi ki, əgər Paşinyan seçkini udarsa Rusiyanı bölgədən çıxarmaq, 102-ci Rusiya hərbi bazasını və sərhədçilərini çıxarmaq üçün Ermənistan real addımlar ata bilər: “Baxmayaraq ki, iqtisadi cəhətdən Ermənistanın Rusiyadan asılılığı çox böyükdür. Bu da Ermənistan hakimiyyəti qarşısında çox ciddi problemlər yaradır. Ermənistandakı əsas müəssisələr Rusiyanın tabeliyində və rus sahibkarlarının mülkiyyətindədir. Bunları tədricən geri qaytarmaq lazımdır. İstiqamət götürülüb, Paşinyan Qərbə yaxınlaşmaq istəyini açıq şəkildə elan edib və bu yöndə fəaliyyətini davam etdirir. Rusiya isə başı Ukraynada qarışdığından hələlik bu addımlara adekvat reaksiya verə bilmir. Bu məqamda Azərbaycan neyləməlidir? Azərbaycan Rusiyanın təsirini minimuma endirib. Bundan sonra da həm Çinlə, həm ABŞ ilə əlaqələr daha da inkişaf etdirilməlidir. Türkiyə ilə birgə fəaliyyətimizi genişləndirməliyik. Türk Dövlətləri Təşkilatının güclənməsi üçün əlimizdən gələni edirik və bundan sonra da etməliyik. Bütün bu addımlar, eyni zamanda ordumuzun daha da güclənməsi, iqtisadi islahatların aparılması gələcəkdə imkan verəcək ki, Rusiyanın yenidən bölgədə möhkəmlənməsinin qarşısını almaq mümkün olsun. Təbiidir ki, burada Gürcüstan hakimiyyətinin tutduğu mövqe kifayət qədər problemlər yaradır və Rusiya Ermənistanda Gürcüstan variantını tətbiq etməyə çalışır. Ümid edək ki, bu plan pozulacaq və "İvanişvili-2 layihəsi" boşa çıxacaq və Rusiyanın Cənubi Qafqazda qalmaq cəhdləri nəticə verməyəcək".



❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 204 (8814) 8 noyabr 2025

# "Ermənistan öhdəliyinə əməl etməsə, dəhlizi Azərbaycan özü açmalıdır" - deputatdan şok açıqlamalar

## Qüdrət Həsənquliyev: "Bakının təzyiqi olmasa, onlar könüllü şəkildə o işləri görməyəcək"

**ƏHD Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev "Yeni Müsavat"a aktual məsələlərlə bağlı müsahibə verib. Millət vəkili hərbi parad, peşəkar orduya keçid, Ermənistanın öz öhdəliklərinə əməl etməməsi, Zəngəzur dəhlizi və digər vacib mövzularda maraqlı və sensasion fikirlər səsləndirib.**

**- Qüdrət bəy, Ermənistanda hərbi xidmət müddəti azaldıldı. Azərbaycanda da çağırışçıların xidmət müddəti azaldıla bilərmi? Alternativ hərbi xidmətin tətbiqi, peşəkar orduya keçilməsi barədə vaxtilə təklifləriniz olub. Artıq sülh müqaviləsinin imzalanması ərəfəsində bu istiqamətdə addımlar atılması mümkünmü, yoxsa hələ tezdir, tam arxayınlaşmaq olmaz?**

- Həmişə o fikirdə olmuşam ki, ən dinc dövrdə belə, ölkənin güclü ordusu olmalıdır. Baxın, görün indi Avropa hansı gündədir. Arxayın idilər ki, Amerika Birləşmiş Ştatları, NATO var. İndi Ukraynada müharibə gedir, başa düşüblər ki, ölkənin müdafiə qüvvələrini yüksək döyüş hazırlığı vəziyyətində saxlamamaqla, hərbi sənaye kompleksini inkişaf etdirməməklə böyük səhvə yol veriblər. Biz çox çətin bir coğrafiyada yerləşirik, çalışmalıyıq ki, qonşularımızla sülh və əminamanlıq şəraitində yaşayaq, yaxşı münasibətlər quraq. Birinci növbədə təhlükəsizliyimizi qonşularla yaxın qonşuluq və dostluq siyasəti təmin etməlidir. Amma bu yalnız bizdən asılı deyil. Ona görə ölkəmizə qarşı hər hansı formada təxribatlar, təcavüzlər ola bilərsə, ən azından müttəfiqlərimizin köməyi gəlib çatana qədər özümüz ilkin müdafiəmizi təmin etməliyik. Buna görə bizim partiyanın seçki platformasında qeyd olunub ki, Azərbaycan peşəkar orduya keçməlidir. Bizim Yaşma xüsusi təyinatlıları var, bir peşəkar əsgər 10 nəfər orduya müddətli həqiqi hərbi xidmətə çağırılmış 18 yaşlı əsgərdən döyüş meydanında daha güclüdür. Azərbaycana 60 000 nəfərlik peşəkar ordu tam yetərlidir. Biz onun tərəfdarı olmuşuq ki, 18 yaşına çatmış oğlanlar yüngül silahlardan istifadə etməyi və müəyyən döyüş vərdişlərini öyrənmək üçün 6 ay hərbi xidmət keçsinlər. İstedadlı və yüksək ixtisaslı işlə təmin olunmuş gənclərə imkan yaradılmalıdır ki, pul qarşılığında hərbi xidmətdən azad olunsun. Bu, Silahlı Qüvvələrin maliyyələşdirilməsinə kömək etmiş olar. Ölkənin müdafiəsini peşəkar hərbçilərə tapşırmaq lazımdı. Zabitlərin maddi təminatını o həddə qədər yüksəltmək lazımdı ki, istedadlı gənclər ali hərbi məktəblərə getsin. Müasir hərb sənəti riyazi və fundamental elmlər sahəsində ciddi biliklər tələb edir. Peşəkar ordu üçün ciddi islahatlara başlamaq lazımdır. Hazırda bilirsiniz ki, orduya çoxlu yeni, yüksək döyüş qabiliyyətli təyyarələr alırıq, ordunu müasir silahlarla təchiz edirik. Özümüz artıq müasir dronlar, mərmilər istehsal etməyə başlamışıq. Türkiyə ilə birgə hərbi sənaye kompleksimizi inkişaf etdiririk. Əlbəttə, bu işləri görməyə də vəsait lazımdır. Biz yeni silahların alışını başa çatdırandan,peşəkar orduya keçəndən sonra müdafiə xərcləri azalacaq.O mənda azalacaq ki,iqtisadi islahatlar nəticəsində büdcənin gəlirləri artacaq və müdafiə xərclərinin azalması faiz hesabı ilə baş verəcək.



**"Nazirlər Kabineti bunun səbəblərini araşdırmalı, iqtisadi azadlıqlar genişləndirilməlidir"**

**- Zəfərimizin 5-ci ildönümü münasibətilə keçirilən hərbi paraddan da böyük gözləntilər var. Hətta Türkiyə və Pakistan prezidentlərinin iştirakı da gözlənilir. Artıq bununla bağlı rəsmi açıqlamalar da var.**

- Xalqımız çox məmnun olardı ki, onlar paradda iştirak eləsinlər. Qələbəmizdən sonrakı ilk paradda bilirsiniz ki, Rəcəb Tayyib Ərdoğan da iştirak və çıxış eləmişdi.

**- Bu həm də dost-düşmənə çox ciddi mesaj olar, elə deyilmi?**

- Sözsüz, həm də böyük bir mesaj olardı. Biz Türkiyə ilə təbii müttəfiqik. Türkiyə və Azərbaycan daha sıx inteqrasiya olunmalıdır. Mən çox təəssüf edirəm ki, Türkiyə 86 milyonluq və daha güclü iqtisadiyyata sahib ölkə olsa da, bizim iqtisadiyyata bizim Türkiyə iqtisadiyyatına yatırdığımızdan daha az investisiya yatırıb. Həm də bu fərq milyardlarla dollarla ölçülür. Nazirlər Kabineti bunun səbəblərini araşdırmalı, biznes mühitinin daha əlverişli olması üçün tədbirlər görməli, iqtisadi azadlıqlar genişləndirilməlidir.

**- Prezidentin Qazaxıstanda səsləndirdiyi bəyanatdan sonra artıq Azərbaycan öz ərazisindən Ermənistana yüklərin daşınmasına izin verib və yüklər daşınır. Rəsmi İrəvan dəfələrlə buna görə Azərbaycana, dövlət başçımıza təşəkkür edib. Prezidentin köməkçisi Hikmət Hacıyevin müşayiəti, Administrasiyanın təşkilatçılığı ilə diplomatların Zəngəzur dəhlizinin Azərbaycan hissəsinə səfəri də təşkil olundu. Yəni proseslər ürəkaçan səviyyədə inkişaf edir. Zəngəzur dəhlizinin Ermənistan hissəsində də artıq işlərə başlanması ilə bağlı təşəbbüslərin göstərildiyi barədə məlumatlar var. Sizin gözləntiləriniz necədir? Doğrudanmı plana uyğun şəkildə dəhlizin açılması və yaxın dönəmdə elə Sizin də Naxçıvandakı ata yurdunuza dəhlizdən keçməklə getməyiniz mümkün olacaq?**

- Bu, hər birimizin, hər bir azərbaycanlının arzusudur ki, yol açılsın, onlar Azərbaycanın əsas hissəsindən öz avtomobilləri ilə birbaşa Naxçıvana, oradan da Türkiyəyə getsinlər. Xüsusilə də naxçıvanlılar bunu çox arzulayır, ona görə ki, evlərinə getməkdə çox əziyyət çəkirlər. Yalnız təyyarə ilə əlaqə saxlamaq mümkündür. 2026-cı ilin dövlət büdcəsinin müzakirəsi artıq Ermənistan parlamentində başlayıb. Onlar büdcədə bu məqsədlə vəsait nəzərdə tutmayıb. Görünür, ya fikirləşirlər ki, ABŞ vəsait ayıracaq? Ya da yolu açmağı düşünmürlər.

**- 145 milyon manat tranşın ayrıldığı xəbəri var...**

- Yox, o da hələlik rəsmi məlumat deyil. Cənab Prezident bölgəyə sonuncu səfərində dedi ki, 2028-ci ilin sonuna qədər yol açılacaq. Söhbət üç illik zamandan gedir. Üç il ərzində o yol çəkiləcəkmi? Hesab edirəm ki, əvvəla, 3 il çox böyük müddətdir. Yəni söhbət 41 km-lik yoldan gedir. Ermənistan dəhlizin açılmasında çox da maraqlı görsənmir. Vaşinqton Bəyannaməsindən sonra çox arxayınlaşıblar.Qonşu ölkələrlə kommunikasiya xətlərinin öz arzuladıqları formada açılmasına nail olduqlarını düşünürlər. Görürsünüz, bizə başqa alternativlər təklif edirlər, "gəlin, bu yollardan istifadə edin" və s.

Hesab edirəm ki, Azərbaycan ABŞ, Rusiya və Türkiyə ilə, həm də Ermənistanla ciddi şəkildə danışmalıdır. Biz dəhlizin açılmasını Ermənistanın daxili siyasətinə bağlamamalıyıq.Azərbaycan əmin olsa ki, Ermənistan yolu açmaq fikrindən uzaqdır, sadəcə bizimlə oyun oynayır, vaxt udmağa çalışır, güc tətbiq etməklə həmin yolu açmalıdır. Əvvəl 10 noyabr 2020-ci il Bəyannaməsinə görə Zəngəzur dəhlizinə Rusiya nəzarət etməli idi. 2025-ci ilin 8 avqust tarixli Vaşinqton Bəyannaməsinə görə də dəhlizə nəzarəti ABŞ həyata keçirməlidir. Fərq etməz, Rusiya, ya Amerika. Amma Ermənistan öhdəliyinə əməl etmirsə, Azərbaycan bu yolu özü açmalıdır və sonra da o dövlətlərə deməlidir ki, indi gəlin, yolun təhlükəsizliyini təmin edin. Bu işğal deyil , sadəcə 5 il ərzində Ermənistan öz öhdəliklərini yerinə yetirmədiyindən biz yolu açdıq. Zəngəzur bizim qədim dədə - baba torpağımızdır, İrəvan da həmçinin. O torpaqları bizdən alıb, Azərbaycanın bir hissəsini digərindən ayırıblarsa, ən azından indi bizə öz torpaqlarımıza getməyimizə dəhliz verilməlidir! Tarixən də yol olub, Ermənistan o yolu bağlaya bilməzsən, o yolu açmalısan! Arzu edək ki, məsələlər güc tətbiqinə qədər gedib çıxmasın və Ermənistan Zəngəzur dəhlizinin tikintisinə tezliklə başlasın. ABŞ dəhlizin açılması üçün Rusiyadan fərqli olaraq ciddi iradə ortaya qoymalıdır. Mən baxıram ki, artıq 8 avqustdan üç ay vaxt keçir, amma dəhlizin açılması ilə əlaqədar nəticəsiz söz-söhbətdən başqa ortada heç nə yoxdur.

**- Ermənistan öz konstitusiyasını da dəyişmək istəmir. Bu məsələ ilə bağlı mövqeyimiz necə olmalıdır?**

- Mən belə başa düşürəm ki, bunlar hər şeyi daxili siyasətə bağlayırlar. Yəni mən bunu eləsəm, bu olar. Bu addım atsam, o olar. Bizim üçün nə əhəmiyyəti var? Dövlətsən, Konstitusiyan təcavüzkar bir konstitusiyadır, başqa dövlətə açıqdan-açığa ərazi iddiaları orada öz əksini tapır. Erməni rəsmilərindən birinin açıqlaması mediada qarşıma çıxdı. Deyir, mən Ermənistanın müstəqillik bəyannaməsi oxudum, dəhşətə gəldim. Sən dəhşətə gəlirsənsə, gör biz onu necə qarşılayırıq. Ona görə də yolun tezliklə açılmasını istəyiriksə, Ermənistana təzyiqi artırmalıyıq.

**- Prezident də xəbərdarlıq etmişdi... Konstitusiya düzəlişləri olmasa, sülh müqaviləsinin əhəmiyyəti olmayacaq demişdi...**

- Bəli, Azərbaycanın təzyiqi olmasa, sizi əmin edirəm ki, onlar könüllü şəkildə o işləri görməyəcəklər. Paşinyan da real addımlardan qaçır, ancaq yaxşı danışsın, vəssalam. Öz xalqını aldadır ki, sülh gətirmişəm. Qorxusundan yolu açmırsa, ona göstərməliyik ki, biz onu daha ciddi cəzalandıra bilərik. Yəni tərəzinin bir gözünə onun başına dəyəcək bizim Dəmir Yumruğu qoymalıdır, digər tərəfinə isə öz iradəsi ilə yolu açmaqdan yayınmırsa, tutaq ki, erməni diasporasının, erməni kilsəsinin, xarici güclərin təzyiqlərini...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Mamdani kitabxanası

Zamin HACI
zaminhaci@gmail.com

**Nyu Yorkda mer seçkiləri olub, müsəlman, mühacir və kommunist - lap "üçü birində" qəhvə reklamı kimi şeydir - Zöhran Mamdani adlı yoldaş qalib gəlib. Özü də başda prezident Tramp olmaqla, az qala bütün amerikalı varlılar Mamdani müəllimin əleyhinə çıxmışdılar. Tramp hətta demişdi ki, əziz nyu yorklular, əgər Mamdaniyə səs versəniz mən gələcəkdə dövlət büdcəsindən sizə məmə verməyəcəyəm. O boyda əks-təbliğatın xeyri olmadı.**

Mənə maraqlıdır, görəsən o "gizli teoriyaçılar", "quyu dibində oturan masonlar" və "dünyanı fırladan yəhudilər" haqda nağılların ifaçıları indi nə fikirləşirlər? Axı onların məntiqi ilə müsəlman, mühacir və kommunist, həmçinin Qəzzaya görə İsraili açıq tənqid edən adam 1 milyondan çox, əksəriyyəti də varlı-hallı yəhudinin yaşadığı, liberalizmin dünya paytaxtlarından biri olan nəhəng şəhərdə qalib gələ bilməzdi. Əlbəttə, yenə bir bəhanə tapıb uyduracaqlar, ritorik sual idi.

Mamdaninin mer proqramına gələndə, açığı, bir az mənə Nizami Süleymanovun "məni seçin, hərənizə 2 otaqlı ev verəcəm, subayları evləndirəcəm, biyan kökündən yaxmac da üstündə" səfsəfəsinə bənzəyir, uğursuzluğuna əminəm. Sadəcə, demokratiyanın, liberalizmin avtoritar-totalitar rejimlərdən fərqi həm də bundadır. Xalq seçir, bəzən bu seçim yanlış da ola bilər. Totalitar rejimlərdə isə ümumiyyətlə seçim olmur.

Mamdani müsəlmandır, ancaq hansısa müsəlman dövlətində bu cür, seçki yolu ilə hakimiyyətə gəlib mer ola bilərdimi? Hətta ən demokratiki Türkiyədir, orda belə şübhə edirəm. Seçilsə sabah tutub basarlar içəri (bax: Əkrəm müəllim).

Mamdani kommunistdir, ancaq hansısa kommunist rejimli ölkədə (Kuba, Şimali Koreya, keçmiş SSRİ) seçki varmı, var idimi?

Bunları liberalizmi söyən, guya Qərbin qloballaşma sayəsində böhrana düşdüyünü iddia edən demaqoqlar, solçular və dindarlar üçün yazdım. Liberalizmin alternativi yoxdur, biləsiniz. Azadlıq insanın təbiətindədir, çünki təbiət özü azadlıqdır.

İndi isə "u" dönüşü edərək heç vaxt mer seçməyə ehtiyacı olmayan əziz Bakımıza qayıdaq. Hərdən Nyu Yorkdan-zaddan yazıb gözümüzün qurdunu öldürürük, yola verin.

Ana yurdumuzda ana dilinin qorunması uğrunda hərəkat başlanıb, bu bizim hər birimizi sevindirir. Həftə içi ana dili temasında sayın Tale Heydərovun açıqlamasını oxudum. Deyir həqiqətən də biz gərək dövlət başçısının çıxışına söykənək, dilimizdə qarşılığı olan xarici sözləri işlətməyək və sairə. Çox gözəl dəstək idi, amma birdən mənim yaramaz yaddaş qurdum tərpəndi: "Görəsən Tale müəllim niyə özünün "Libraff" dükanlarına da ana dilimizdə bir isim yapışdırmamışdır?"

Doğrudan da, Bakıda və bölgələrdə həmin bu "Libraff" kitab dükanları şəbəkəsinin 10-a yaxın mağazası olmalıdır, lakin ana dilimizdə "libraff" nə deməkdir, yəqin bilən olmaz.

Bəlkə "Etiraf" yazmaq istəyiblər? Bəlkə "Şkaf"? Ya da "Kitab"? Libra - qədim latınca tərəzi deməkdir. Mən internetdə jurnalist araşdırması apardım, nə Kamaləddin müəllim, nə Tale müəllim Tərəzi bürcü altında doğulmamışdır.

Heç kitabı da kürü, balıq, şabalıd və sairə kimi tərəzi ilə çəkib satmırlar, ədədlə olur.

Qalır yeganə variant kimi ingiliscə "library" sözcüyü, mənası "kitabxana" deməkdir. Güman edirəm elə bunu nəzərdə tutublar. ("Jiraf" - zürafə sözü də mümkündür, yazını bitirəndən sonra ağlıma gəldi, burda ağ yer qalmışdı, bura qoydum).

Bəyəm dükanın adını elə bu cür - "Kitabxana" qoymaq olmazdı? Əgər axırına "ahh", "off", "uff" artırmaq dəhşətli dərəcədə vacib idisə, "Kitaboff" qoyardınız. Həm camaatın kitab oxumadığını, həm də milli soyadlarımızdan olan "ov"un təcəssümünü göstərmiş olardı.

İndi söz əlaqədar təşkilatlarındır. Danışın, sizdə də səhv tutaq.



# "Bakı, Ankara və İrəvan eyni tərəfə baxır..." - bəs Moskva?

## Üç qonşu ölkənin tale ortaqlığının uzunömürlü olması bir halda mümkündür - analitikin proqnozu

**"Bu gün Türkiyə, Azərbaycan və Ermənistan inkişaf baxımından eyni istiqamətdə hərəkət edir". Bu sözləri ABŞ-ın Türkiyədəki səfiri və Suriya üzrə xüsusi nümayəndəsi Tom Barrak deyib.**

Diplomatın sözlərinə görə, ABŞ və Türkiyə Xəzər dənizindən Aralıq dənizinədək uzanan coğrafiyada qüvvələrin yeni bölgüsünə rəhbərlik edir: "Prezident Donald Tramp dünya "şahmat taxtasında" qüvvələr nisbətini dəyişərək regiona yeni tarazlıq gətirib".

Belədirmi? Azərbaycan, Türkiyə və Ermənistan eyni tərəfə baxırsa, bəs Rusiya hansı tərəfə fokuslanıb? Üç qonşu ölkənin mövqe və tale ortaqlığı nə dərəcədə uzunömürlü ola bilər? Əsas maneələr nədir, Rusiya xalqların barışığına imkan verəcəkmi?

Yada salaq ki, ötən həftə XİN başçısı Sergey Lavrov ABŞ-ın Güney Qafqaz və Orta Asiya ölkələrini "Rusiyadan uzaqlaşdırmasına" imkan verməyəcəyini, buna qarşı bütün siyasi, diplomatik və iqtisadi rıçaqların işə salınacağını bildirmişdi.

Professor Qabil Hüseynli "Yeni Müsavat"a bildirib ki, üç ölkənin ortaqlığının uzunömürlü olması Ermənistanın özünü necə aparmasından asılıdır. Onun fikrincə, Azərbaycan və Türkiyə həmişə bölgədə dayanıqlı sülhün olmasında maraqlıdır, lakin Ermənistan başqa dövlətlərin təsiri altında buna qarşı çıxıb. Q.Hüseynli Paşinyan hakimiyyətinin sülh istədiyini düşünür, bununla belə regionda Bakı-Ankara-İrəvan münasibətləri kövrəkdir: "Yeni Rusiya bu əlaqələrə qısqanclıqla yanaşır. Kreml heç vaxt istəməz ki, onun vassalı olmuş Ermənistan tamamilə əlindən çıxsın və Türkiyə ilə yaxınlaşsın. Ancaq Moskvanın necə fikirləşməsindən asılı olmayaraq, dünyada gedən proseslər və yeni reallıqlar Türkiyənin Cənubi Qafqazda varlığını qaçılmaz edir. Qərb, xüsusən ABŞ də maraqlıdır ki, onun müttəfiqi olan Türkiyə bizim regionda gücə çevrilsin. Bu da məhz Rusiyanın əlindən bu bölgəni almaq niyyətidir. ABŞ birbaşa olmasa da, müttəfiqi Türkiyənin gücü hesabına Cənubi Qafqazda təsirini artırır, Rusiyanı isə sıxışdırır. Ona görə də Lavrov və digər Rusiya rəsmiləri bəyanatlar səsləndirir, MDB məkanına təhdidlər olduğunu iddia edir, bu bölgəni əldən verməyəcəklərini dilə gətirirlər".

Professor qeyd edib ki, Ermənistanda hakimiyyət dəyişikliyi olmasa, bölgədə uzunmüddətli sülh mümkündür: "Çünki səfirin də dediyi kimi, hazırda Bakı, Ankara və İrəvan eyni tərəfə baxır. Amma Moskva əks tərəfə - köhnə narrativlərə baxmaqdadır. Çünki Rusiya bölgədə problemlərin qalmasında, gərginliyin olmasında maraqlıdır. Kreml yalnız bu yolla bölgədə təsirini saxlaya bilir. İndi isə vəziyyət dəyişib. Azərbaycandan Rusiya və Qazaxıstan taxılı Ermənistana gedir, blokada olan nəqliyyat kommunikasiyalarının açılmasına imkanlar yaranır. Bu da gələcəkdə regionda təhlükəsizliyin təmin olunması üçün vacib faktdır. Qərb də, region ölkələri də yüklərin daşınması, Orta dəhlizin işləməsi üçün təhlükəsizlik davamlı olmasında maraqlıdır. Sabitlik olmayan regionda yüklər daşına bilməz. Bu səbəbdən də prosesə dəstəyi artıracaqlar".

Xatırladaq ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Cənubi Qafqazda "3+3" formatında işlərin bərpasının vacibliyindən danışıb. "Regional məsləhət qrupunun, "3+3" platformasının işini bərpa etmək vacibdir. Üçtərəfli işçi qrupu çərçivəsində razılaşma əldə edilmiş regionda nəqliyyat kommunikasiyalarının açılması böyük əhəmiyyət kəsb edir", - o bildirib. Şoyqu qeyd edib ki, ümumilikdə Cənubi Qafqazda vəziyyət yaxşılaşmaya doğru gedir.

Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan isə deyib ki, "Trampın yolu" layihəsi siyasi əhəmiyyətə malikdir, sülhün qarantı və alətlərindən biridir: "Hazırda Amerika tərəfi ilə danışıqlar aparılır. Məncə, onu tikəcək və gündəlik idarəetməni həyata keçirəcək bir erməni-amerikan şirkəti olmalıdır. Bu, infrastruktur üzərində Amerikanın nəzarəti demək deyil. Suverenlik və hakimiyyətlə bağlı bütün məsələlər həll edilib və imzalanmış və dərc olunmuş sənədlərdə öz əksini tapıb. Bu, yalnız idarəetmə məsələsidir". O qeyd edib ki, rəsmi olaraq Moskva və Tehran heç bir narahatlıq bildirməyib: "Əksinə, İran və Rusiya layihədə maraqlıdır, xüsusən də Rusiya Ermənistandakı başqa bir şirkətin - Cənubi Qafqaz Dəmir Yolunun operatoru olduğundan".

Onu da deyək ki, Rusiyadan Ermənistana gətirilən, ümumi çəkisi 1050 ton olan Rusiya buğdasının ilk partiyası Azərbaycan və Gürcüstan ərazisindən keçərək Ermənistana gəlib. Ermənistanın "Cənubi Qafqaz Dəmir Yolu" Şirkəti məlumat yayıb. "15 taxıl vaqonunda daşınan yük Azərbaycan ərazisindən keçərək Gürcüstan-Ermənistan dövlət sərhədini keçib. Taxıl "Cənubi Qafqaz Dəmir Yolu Şirkəti"nin Dalarik stansiyasına çatdırılacaq".

Yeni logistik xidmətin fəaliyyətə başlaması Azərbaycan üzərindən Ermənistana yükdaşımaların bərpası qərarı ilə mümkün olub. Bu, 1990-cı illərdən bəri belə daşımalara ilk cəhddir. "2026-cı ilin yanvar ayının sonuna qədər bu marşrutla daha 132 vaqon buğdanın çatdırılması planlaşdırılır. Bundan başqa, digər növ yüklərin daşınması imkanlarının müzakirəsi də planlaşdırılır", - məlumatda deyilir.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Trampdan yeni dəhliz açıqlaması

**"TRIPP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu) layihəsi dünyanın iqtisadi cəhətdən əhəmiyyətli regionundan keçən nəqliyyat dəhlizidir. O, Xəzər dənizi boyunca artan ticarət fəallığını stimullaşdırmaq və Mərkəzi Asiya ölkələrinin inkişafına kömək etmək üçün nəzərdə tutulub".**

"Yeni Sabah" xəbər verir ki, bunu ABŞ prezidenti Donald Tramp C5+1 görüşü zamanı bildirib. Onun sözlərinə görə, bu marşrutun həyata keçirilməsi Azərbaycan və Ermənistan arasında tarixi razılaşma sayəsində mümkün olub. "Bu tarixi saziş həm də yeni "Tramp marşrutu"nun yaradılmasını nəzərdə tutur. Bu, çox gözəldir. Onlar (Azərbaycan və Ermənistan - red.) marşruta mənim adımı veriblər. Mən həqiqətən də bunu yüksək qiymətləndirirəm. Yeni Tramp marşrutu beynəlxalq sülhə aparan yoldur. O, Xəzər dənizi boyunca ticarəti təşviq edəcək və Xəzərin o tayındakı Mərkəzi Asiya xalqlarına kömək edəcək. Əminəm ki, bu gün bu tədbirdə iştirak edən hər bir ölkə sülh imkanlarından istifadə edə biləcək", - deyə ABŞ Prezidenti vurğulayıb.




# Zəfərimizin 5 yaşı - Bu gün möhtəşəm hərbi paraddır

## 8 Noyabr regionda yeni düzənin formalaşmasının başlanğıcıdır; Qarabağın azadlığına həsr olunan tədbirdə əsl müttəfiqlərimiz - Türkiyə və Pakistan liderləri də iştirak edəcək

**Bu gün - 8 noyabr Zəfər Günüdür. Şuşanın erməni işğalından qurtuluşunu (8.11.2020), 44 günlük Vətən müharibəsində qələbəmizi simvolizə edən, xalqımızın qürurunu özünə qaytaran möhtəşəm bir tarixdir 8 noyabr.**

Bu tarixi gün regionda yeni düzənin formalaşmasının başlanğıcı idi. Qarabağ Zəfərinə aparan yolun başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Qarabağı, Şuşanı işğaldan azad edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin, möhtərəm Prezident İlham Əliyev idarəçiliyinin yetirmələridir. Ərazi bütövlüyü və suverenliyimizin banisi Milli Liderimiz, onu reallaşdıran isə Müzəffər Ali Baş Komandanımız və Şanlı Ordumuz oldu.

Zəfərin 5-ci ildönümü ilə bağlı bu gün Bakıda hərbi parad keçiriləcək. Hərbi parada hazırlıq işləri tam və uğurla başa çatdırılıb. Azərbaycan silahlı qüvvələrinin bütün qoşun növlərinin bölükləri hərbi paradda iştirak edəcəklər. Ordumuzun arsenalında olan ən müasir hərbi texnikalar, ən müasir modern silahlar nümayiş etdiriləcək. Dünya Azərbaycan dövlətinin, Azərbaycan ordusunun qüdrətinə bu gün bir daha şahidlik edəcək. Qələbənin 5 illiyi münasibətilə keçiriləcək hərbi parada qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan və qardaş Pakistanın baş naziri Şahbaz Şərifin qatılacağı isə bu möhtəşəm tədbirin möhtəşəmliyini, əhəmiyyətini daha da artırmış olacaq.

Eyni zamanda, Türkiyə ordusunun Zəfər Günü münasibətilə təşkil olunacaq paradda heyəti iştirak edəcək. Paradda Prezident Türkiyə Qvardiyası Alayının Rəsmiyyət Birliyi və Hərbi Hava Qüvvələrinə məxsus 6 ədəd F-16 təyyarəsi də qatılacaq.

Onu da deyək ki, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif noyabrın 7-də Azərbaycana səfərə gəlib.

Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

Deputat Aydın Hüseynov "Yeni Müsavat"a bildirdi ki, 8 Noyabr Zəfər Günü xalqımızın qəhrəmanlıq iradəsini, milli həmrəyliyini və azadlıq uğrunda sarsılmaz mübarizə əzmini təcəssüm etdirir. Bu əlamətdar tarix ədalətin bərpasını, torpaqlarımızın azadlığını və milli qürurun dirçəlişini ifadə edir: "Zəfər Günü həmçinin müstəqil dövlətin gücünü, ordunun qüdrətini və xalqın birlikdə yazdığı şanlı qələbənin simvoludur. 27 sentyabrda başlanan Vətən müharibəsi 8 noyabrda işğalçının ağ bayraq qaldırıb təslim olması ilə nəticələndi. Bu tarix dünyaya yeni Azərbaycanı doğurmuş oldu, regionda, hətta deyərdim daha qlobal miqyasda yeni reallıqlar yaratdı. 8 noyabr zəfəri 2023-cü ilin sentyabrında Qarabağdakı erməni separatçı quldur rejiminin süqutunun və bütün ərazimizdə suverenliyimizin bərpasının əsasını qoydu".

Deputat qeyd etdi ki, qələbə günündən keçən 5 ildə Azərbaycan işğaldan azad etdiyi ərazilərində böyük tikinti-quruculuq işlərini həyata keçirib, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışına başlanıb: "Böyük Qayıdış Proqramı çərçivəsində azad edilmiş ərazilərdə sosial-iqtisadi infrastrukturun bərpası sürətlə və sistemli şəkildə davam edir. Yollar, enerji və kommunal sistemlər yenidən qurulur, şəhər və kənd yaşayış məskənləri müasir standartlara uyğunlaşdırılır, təhsil və səhiyyə obyektləri isə əhalinin rahatlığını və xidmət keyfiyyətini artıracaq şəkildə yenilənir. İqtisadi fəaliyyətin bərpası, yerli müəssisələrin təşkili və iş yerlərinin yaradılması, həmçinin regionda investisiya mühitinin gücləndirilməsi proqramın prioritet istiqamətlərindəndir. Sözügedən proqram Azərbaycanın regional liderlik potensialını daha da möhkəmləndirir, dayanıqlı inkişafın yeni mərhələsini yaradır və siyasi-iqtisadi sabitliyin təmin olunmasına töhfə verir. Həmçinin, bu təşəbbüs işğaldan azad edilmiş ərazilərin bərpası fonunda yerli əhalinin geri dönməsini təşviq edir və onların sosial inteqrasiyasını gücləndirir. Hazırda işğaldan azad olunan ərazilərimizdə 60 minə yaxın vətəndaşımız yaşayır və işləyir. Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda məskunlaşan keçmiş məcburi köçkünlərin sayı isə 16 mindən çoxdur. Gələn ilin sonuna qədər azad olunmuş ərazilərdə 140 min sakin məskunlaşacaq.

Azərbaycan dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına artıq 22 milyard manatdan çox vəsait ayrılıb. Bu il ən azı 4 milyard manat işğaldan azad olunan ərazilərimizin bərpasına yönəldilmiş olacaq. Gələn il isə işğaldan azad olunan ərazilərimizin bərpasına 3.5 milyard manatın ayrılması proqnozlaşdırılır. 2026-2029-cu illərdə isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 13,5 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur.

Artıq işğaldan azad olunan ərazilərimizə sərmayə cəlbi də sürətlənməkdədir. Yalnız Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarına 50 milyon manatdan artıq sərmayə cəlb edilib. Bu Qarabağda iqtisadiyyatın formalaşması və reintqerasiya mərhələsindən xəbər verir. Qarabağ iqtisadiyyatı Azərbaycan iqtisadiyyatında mühüm yer tutacaq".

A.Hüseynov onu da dedi ki, torpaqlarımızı azad edib qələbə qazandıqdan sonra da Azərbaycan silahlı qüvvələri bütün istiqamətlərdə inkişaf edib: "Silahlı Qüvvələrin modernləşdirilməsi konteksində yüksək texnologiyalı silah sistemləri, dron platformaları və dəqiq zərbə vasitələrinin tətbiqi ordunun əməliyyat çevikliyini və döyüş qabiliyyətini xeyli dərəcədə artırmışdır. Yerli müdafiə sənayesinin və elmi-tədqiqat-istehsal əlaqələrinin inkişafı, modern təlim proqramları və beynəlxalq təcrübə mübadiləsi personalın peşəkarlığını artırmış, ordunun taktiki-strateji potensialını yeni səviyyəyə qaldırmışdır. Nəticədə, bütün bu elementlər birlikdə müdafiə qabiliyyətinin davamlı güclənməsini, operativ çevikliyin yüksəlməsini təmin etmiş və regional sabitliyə töhfə verən etibarlı dayaq rolunu oynamışdır. Azərbaycan ordusu cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi ən müasir güclü ordulardan birinə çevrilib. Ordumuz Türkiyə-NATO ordusu modelinə keçib. Azərbaycan ordusunun inkişaf strategiyası, 44 gün günlük müharibədə nümayiş etdirdiyi döyüş taktikası bu gün dünyanın bir sıra ordularında, hərbi məktəblərində öyrənilir. 2020-ci ilin 27 sentyabr tarixində Ermənistanın törətdiyi genişmiqyaslı hərbi təxribatlara cavab olaraq başlanan "Dəmir yumruq" əməliyyatı Azərbaycan Ordusunun yüksək koordinasiyalı, çevik və strateji hazırlığını nümayiş etdirib. Əməliyyat boyu həyata keçirilən planlı hücumlar, dəqiq zərbə taktikasının tətbiqi, komanda-idarəetmə sistemlərinin effektiv fəaliyyəti və ordunun müxtəlif qoşun növləri arasında tam sinxronlaşdırılmış hərəkəti Azərbaycan Silahlı Qüvvələrinin müasir döyüş standartlarına tam uyğunluğunu göstərib. 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqların azad edilməsi yalnız hərbi baxımdan deyil, həm də milli iradə, xalq birliyi və dövlətin strateji uzaqgörənliyinin təntənəsinə çevrilib. Bu Qələbə diplomatik müstəvidə də ölkəmizin mövqelərini gücləndirib, regionda yeni reallıqlar yaradıb və beynəlxalq aləmdə ədalətin bərpası kimi dəyərləndirilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bu şanlı tarix bizimlə əbədi olacaq, Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq daim fəxr edəcəklər".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Tiflisdən Bakı və İrəvana sülh mesajı




**"Azərbaycanla Ermənistan arasında sülh sazişi son dərəcə vacibdir".**

APA-nın yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze "TRT World" telekanalına müsahibəsində deyib.

Onun sözlərinə görə, son 35 ildə Gürcüstan bölgədə sülhün bərqərar olunmasında çox mühüm rol oynayıb.

"Gürcüstan Ermənistan və Azərbaycan üçün çox önəmli rol oynamaqda davam edir", - Kobaxidze əlavə edib.

O qeyd edib ki, iki ölkə arasında sülh sazişinin imzalanması Cənubi Qafqazda sülhün möhkəmləndirilməsinə töhfə verəcək.

Baş nazir bildirib ki, Gürcüstanın Azərbaycan və Ermənistanla iqtisadi tərəfdaşlığı hər iki ölkənin iqtisadi inkişafında həlledici rol oynayır:

"Hazırda hər üç ölkədə yüksək iqtisadi artım templəri müşahidə olunur və bu, üç ölkə arasında sülh və çox yaxşı əməkdaşlıq sayəsindədir. Buna görə də biz eyni yolla davam etməliyik. Gürcüstanın Cənubi Qafqaz regionunun inkişafı ilə bağlı baxışı belədir".

YENİ MÜSAVAT
N 204 (8814) 8 noyabr 2025

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev noyabrın 3-də AMEA-da çıxışı zamanı indiki Ermənistan ərazisindəki toponimlərin, yəni coğrafi adların mütləq əksəriyyətinin Azərbaycan mənşəli olduğunu bildirib.**

"Təkcə 20-ci əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb", - Prezident vurğulayıb və əlavə edib ki, həmin xəritələr təbliğ və tədqiq edilməlidir.

Maraqlıdır ki, üstündən 3 gün (!) keçmiş, noyabrın 6-da Ermənistan Baş naziri Nikol Paşinyan öz aləmində çıxışa cavab verib.

Sitat: "Azərbaycan Prezidenti İlham Əliyev son çıxışında Çar Rusiyasının xəritələrinə görə, Sevanın mövcud olmadığını, Göyçənin mövcud olduğunu söyləyib. Onların istinad etdiyi xəritədə "Ermənistan" adı yazılıb, Azərbaycan isə, ümumiyyətlə, yoxdur. İndi bunu necə şərh edək?"

Paşinyanın sözlərinə görə, erməni jurnalistlərdən heç biri bu xəritənin mövcud olub-olmadığını müəyyən etməyə çalışmayıb. O iddia edib ki, əgər bu xəritə dərc olunacağı halda Ermənistan üçün əlverişsiz olduğu üzə çıxarsa, Azərbaycan üçün ikiqat əlverişsiz olacaq. Lakin o bunu faydasız iş adlandırıb: "Çünki



# Paşinyan Göyçədən danışdı və... çaşdı - Bakıdan sərt cavab

## Süni şəkildə yaradılan Ermənistan Çar Rusiyasının xəritələrində necə qeyd oluna bilərdi? - tarixçidən şillə kimi faktlar

əvvəlki dövrlərin xəritələri rəhbər tutulsa, onda nə Ermənistan Respublikasının, nə də Azərbaycan Respublikasının mövcud olmadığı ortaya çıxa bilər".

Ermənistanın baş naziri, xüsusən də 8 avqust 2025-ci il tarixli razılaşmalardan sonra bunu mənasız mövzu adlandırıb. "Kim deyir ki, bunlar Azərbaycan adlarıdır? Onlar türk, ərəb, fars, monqol, rus adlarıdır. Ancaq bu heç nəyi dəyişmir", - Paşinyan əlavə edib.

Əvvəla, məgər "türk" elə "Azərbaycan" demək deyil? Digər yandan, niyə Çar Rusiyasının xəritələrindəki Azərbaycan toponimlərinin adları indiki Azərbaycan Respublikası ərazisində əksərən olduğu kimi qalıb, Ermənistanda isə dəyişdirilib və erməniləşdirilib? Demək, torpaq tarixən ermənilərin olmayıb. Üçüncüsü, çox sonralar süni şəkildə yaradılan Ermənistan Çar Rusiyasının xəritələrində necə qeyd oluna bilərdi?..

Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin dosenti Boran Əziz "Yeni Müsavat"a bildirib ki, 18-ci əsrin ikinci yarısından sonra Azərbaycan tarixini öyrənənlərin bir qismi rus mənbələridir: "Rus mənbələrinin içərisində Azərbaycana səyyah adı ilə göndərilmiş kəşfiyyatçıların, eyni zamanda 19-cu əsrin əvvəllərində, Azərbaycanın işğalı dövründə rus hərbçilərinin yazdığı hesabatlar və s. var ki, onlar da bizim üçün olduqca qiymətlidir. Çünki bu hesabatlarda yerlərin adları olduğu kimi qeyd edilib. Təbii ki, rusların tələffüz edə bildiyi şəkildə yazılıb.

1828-ci il Türkmənçay müqaviləsinə qədər o torpaqlarda hər hansısa bir İrəvan vilayəti və ya 19-cu əsrin 40-cı illərinə qədər İrəvan quberniyası adına qətiyyən rast gəlmirik. Bütün bunların hamısı Rusiyanın qədim Azərbaycan torpaqlarında ermənilərə dövlət yaratmaq niyyətindən sonra peyda olub.

Azərbaycan prezidentinin dediyi kimi, toponimlərimizin tarixini təkcə tədqiq etmək yox, həm də xarici dillərdə çap etdirərək yaymağımız olduqca vacibdir.

Biz Gülüstan və Türkmənçay müqavilələrinin şərtlərinə baxsaq, heç birində erməni vilayəti adına rast gəlmirik. Orada ancaq Azərbaycan xanlıqlarının adı çəkilir. Təəssüf ki, torpaqlarımız Rusiya tərəfindən bütöv Azərbaycan şəklində deyil, ayrı-ayrı xanlıqlar kimi işğal olunduğuna görə, sonrakı dövr rus mənbələrində bir yerdə də Azərbaycan adı işlənməyib. Ona görə də insanlar elə bir hala salınmışdı ki, vətəninin adını unutmuşdu. Azərbaycanlılar rus qaynaqlarında yadelli, gəlmə və yaxud da müsəlman, tatar kimi qeyd edilmişdi.

Cümhuriyyət dövründə xanlıqlar kimi işğal olunan vətənimiz Azərbaycan adını bərpa etdi. Lakin bu o demək deyil ki, ona qədər bu torpaqlar Azərbaycan adlanmamışdır. Tamamilə yanlışdır. Sasani və ərəb qaynaqlarında şimal torpaqlarımızın Azərbaycan adlanması ilə bağlı yüzlərlə məlumat vardır. Buna görə də o dövr üçün Azərbaycanın inkar edilməsi əsassızdır".

Tarixçi deyir ki, təkcə Paşinyan deyil, İranın da bir sıra siyasi xadimləri Azərbaycanın yalnız İrana aid olması iddiasını irəli sürülər: "Bunlar siyasi xarakterli bəyanatlardır. Bütün hallarda deməliyik ki, istər Çar Rusiyası dövründə nəşr olunan xəritələr, istərsə də 1822-ci ildən başlayaraq müxtəlif illərdə Azərbaycan türklərinin yaşadığı torpaqda siyahıya almalar çox ciddi mənbədir. Biz İrəvan quberniyasının kəndlərinin adlarına və əhali tərkibinə baxsaq, o torpaqlarda yaşayanların kimlərdən ibarət olduğunu çox açıq-aydın görərik. Paşinyanın çıxışı daxili auditoriyaya hesablanmış fikirlərdir".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Vardanyanın Bakıdan sarsaq çağırışı - Maddəsi ağırlaşa bilər

## Keçmiş xunta rejiminin üzvünün oğlu ilə telefon danışığı yayılıb - növbəti "qəhrəmanlıq" şousu



**Qarabağda separatçı və qanunsuz silahlı-siyasi strukturların təşkilində iştirak etdiyi üçün hazırda Azərbaycanda həbsdə olan Ruben Vardanyanın oğlu ilə telefon danışığı yayılıb. Danışıq zamanı o, oğluna "əsl qəhrəman ümidin qalmadığı yerdə onu yenidən yandırandır", "insan özündə işığı və xeyiri daşımalıdır" və bu kimi təxribatçı fikirlər səsləndirib. Təbii ki, bu bəyanatlar real vəziyyətdən yerlə göy qədər uzaqdır və yalnız emosional təsəlli xarakteri daşıyır. Vardanyan Azərbaycanın BMT tərəfindən tanınmış sərhədləri daxilində mərkəzi hakimiyyətə qarşı qondarma "dövlət", "nazirlik" və "ordu" strukturunun maliyyələşdirilməsi və idarə olunmasına rəhbərlik edib. O, Qarabağ bölgəsində separatizmin gücləndirilməsi, silahlı dəstələrin təchiz edilməsi, Azərbaycan ordusuna və dinc şəhərlərə raket hücumlarında iştirak, eləcə də yerli əhaliyə qarşı qanunsuz təsir mexanizmlərinin yaradılması ilə bağlı istintaqa cəlb olunub.**

Hazırda Vardanyan barəsində istintaq davam edir və o, törətdiyi əməllərə görə məhkəmə qarşısında cavab verir. Amma belə çıxır, o öz əməllərindən hələ də peşman deyil və axmaq ideyalarla yaşamağa davam edir, Azərbaycan dövlətinin ərazi bütövlüyü və suverenliyi əleyhinə yenə fikirlər səsləndirir. Onun separatizmə və işğalçılığa çağırış anlamı verən yuxarıdakı sarsaqlaması maddəsini ağırlaşdıra bilərmi?

Vəkil Cavad Cavadov "Yeni Müsavat"a deyib ki, Vardanyan növbəti dəfə öz "qəhrəmanlıq" şousunu nümayiş etdirib: "Onun oğlu ilə telefon danışığı zamanı səsləndirdiyi ifadələr cəmiyyət tərəfindən haqlı olaraq qəzəblə qarşılanıb. Bu sözlər təkcə emosional təsəlli deyil, Azərbaycanın ərazi bütövlüyünə yönəlmiş açıq çağırış kimi qiymətləndirilməlidir: "Çünki Ruben Vardanyan Qarabağda qanunsuz "dövlət", "nazirlik" və "ordu" strukturunun maliyyələşdirilməsində, separatizmin idarə olunmasında və silahlı birləşmələrin təchizatında birbaşa iştirak edib. O, Azərbaycan Ordusuna və dinc əhaliyə qarşı hücumların maliyyə dayaqlarını təşkil edən şəxslərdən biridir. Hazırda Vardanyan barəsində istintaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunsuz silahlı birləşmələrin yaradılması və idarə olunması) və 280.2 (dövlət əleyhinə açıq çağırışlar) maddələri ilə aparılır.

Bu cür çıxışlar, xüsusilə işlətdiyi sarsaq ifadələr, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş təbliğatdır. Cinayət Məcəlləsinin 281.2-ci maddəsi məhz bu tip hərəkətləri əhatə edir. Hətta bu fikir xaricə ötürülüb ictimailəşdirilirsə, bu, artıq təkrar və davamlı niyyət kimi dəyərləndirilə bilər. Hüquqi dildə desək, bu, cinayət tərkibinin genişlənməsi deməkdir. Onun son "çıxışı"- yeni telefon danışığında səsləndirdiyi separatçı fikirlər Cinayət Məcəlləsinin 281.2-ci - Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına yönəlmiş açıq çağırışlar maddəsinin tətbiqinə əsas yarada bilər. Bu maddə 5 ildən 8 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur. Əgər istintaq həmin danışığı yeni sübut kimi qiymətləndirsə, Vardanyanın ittihamları ağırlaşdırılmış cinayət tərkibli əməllərlə birləşdirilə bilər".

Cavad Cavadov deyib ki, məhkəmə təcrübəsində təqsirləndirilən şəxsin öz əməllərinə münasibəti, yəni peşman olub-olmaması mühüm amil olaraq nəzərə alınır: "Ruben Vardanyan bu sarsaq bəyanatı ilə bir daha göstərir ki, o, nə törətdiyi cinayətin məsuliyyətini anlayır, nə də ondan imtina etmək niyyətindədir. Bu isə onun üçün yalnız mənəvi deyil, həm də hüquqi baxımdan çətin nəticələr doğura bilər. Məhkəmə orqanları adətən belə inadkar davranışı cəzanı yüngülləşdirən deyil, ağırlaşdıran hal kimi nəzərə alır. Ruben Vardanyanın Bakıdan sarsaq çağırışı isə bir daha sübut edir ki, o, hələ də reallıqdan uzaq, məğlub ideologiyanın girovudur. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə oynamaq istəyən hər kəs bilməlidir ki, qanun qarşısında ümid deyil, yalnız məsuliyyət var. Hər hansı bir sərsəm açıqlama ilə cəzadan yayınmaq mümkün deyil".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**“2026-cı ilin dövlət büdcəsində 45 faiz sosial sahəyə yönləndiriləcək”. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov 2026-cı il dövlət büdcəsinin layihəsinin müzakirəsinə həsr edilmiş birgə iclasında deyib.**

# “Onkoloji xəstələrin pulu artırılsın...” - Komitə sədrindən təklif və reaksiya

## Ölümlə döyüşən bu xəstələrin sayı ilbəil artır, ayrılan vəsait isə yetərli deyil; icbari tibbi sığortanın vəsaiti hesabına bu sahəyə diqqət göstərilməsinə çağırış edildi



O qeyd edib ki, 2026-cı ildə səhiyyə xərcləri 2 milyard manata çatdırılacaq: “Müqayisə üçün deyim ki, 5 il bundan öncə bu xərclər 8 milyon təşkil edirdi. Əminəm ki, gələcəkdə bütün səhiyyə xidmətləri icbari tibbi sığortaya cəlb ediləcək”.

Komitə sədri deyib ki, əhaliyə göstərilən ilkin tibbi xidmətin keyfiyyətinin aşağı olması problem olaraq qalır: “Bu xüsusilə bölgələrdə və regionlarda ciddi problemdir. Həmin sahədə müəyyən işlər getsə də, uğurlu nəticə görmürük. Növbəti ildə icbari tibbi sığorta vəsaiti hesabına bu sahəyə də diqqət göstərilməsi yaxşı olar. Büdcədən ayrılan vəsait onkoloji xəstələrin müalicəsi üçün də yetərli deyil. Bu sahəyə diqqətin artırılmasını təklif edərdim”.

Onkoloji xəstəliyə tutulmuş şəxslərin müalicəsinin və reabilitasiyasının həyata keçirilməsi, dərman preparatlarına olan tələbatın ödənilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 65,6 milyon manat vəsait yönəldiləcək.

2006-cı ildə qəbul edilən “Onkoloji yardım haqqında” qanununa görə, hər bir Azərbaycan vətəndaşı olan onkoloji xəstənin müayinə və müalicəsi dövlət tibb müəssisələrində dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməlidir. 2007-ci ildən etibarən isə onkoloji xəstəliklərlə mübarizə üçün hər il dövlət büdcəsindən pul ayrılır. Elə həmin ildən bu məbləğin birbaşa Milli Onkologiya Mərkəzinə köçürülməsi həyata keçirilir.

Ümumdünya Səhiyyə Təşkilatı 2025-ci ilə qədər dünyada xərçəng xəstələrinin sayının artaraq 20 milyona çatacağını proqnozlaşdırır. Ötən illərlə müqayisədə Azərbaycanda da bu xəstəlikdən əziyyət çəkənlərin sayında artım müşahidə olunur.

Azərbaycanda onkoloji xəstələrin müalicəsinə ayrılan vəsait azdırmı? Bu yöndə hansı işlər görülməlidir?

Tibb üzrə fəlsəfə doktoru, həkim-onkoloq Fərid Museyibov mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, ildən-ilə onkoloji xəstəliklərin sayı çoxalır, eyni zamanda, xəstəlik gəncləşir: “Əsas problem xəstəliyin gənclər arasında çoxalmasıdır. Onkoloji xəstələrin müalicəsi icbari tibbi sığortaya daxil edilməsi vacibdir. Hərçənd ilk illərdə icbari tibbi sığorta məsələsi ortaya qoyulduqda, heç bir müayinə metodu buna daxil deyildi. Amma artıq bir-iki ildir ki, onkoloji xəstəlikdən əziyyət çəkən pasiyentlərimiz üçün həm endoskopik müayinə, kompüter tomoqrafiyası (KT), həm MRT müayinə artıq ”Xidmətlər Zərfinə" daxil edilib. Ümumiyyətlə, burada da büdcə vəsaiti dəqiq hesablanmalıdır ki, onkoloji xəstələrə ilkin yardımlar olunsun. Çünki əksər xəstəliklərdə bir cərrahi əməliyyatla məsələ bitir. Amma onkoloji xəstəliklərdə belə deyil. Burada həm cərrahi əməliyyat, bundan sonra kimyəvi dərman, şüa müalicəsi lazımdır. Eləcə də, elm və texnologiyanın sürətli inkişafına görə “Ağıllı dərman” adlandırılan preparatların meydana gəlməsi - bütün bunlar böyük vəsait tələb edir. Yəni bu dərmanların qiyməti çox yüksək olduğuna görə məbləğ də kifayət etmir. Bu səbəbdən vəsaitin ayrılması nəzərdə tutulur. Digər tərəfdən, sadaladığım prosedurlardan - şüa, kimya və “Ağıllı dərman”dan sonra xəstənin sinir sistemində müəyyən pozuntular yaranır. Təbiidir ki, onların reabilitasiyaya cəlb olunması vacibdir. Çünki bu şəxslərdə ölüm qorxusu yaranır və pasiyent fikirləşir ki, hər dəqiqə ölə bilər. Yəni, vəsait nə qədər çox ayrılarsa, o qədər pasiyent üçün faydalı olar. Həm müalicə, həm müalicədən sonra şüa, kimyaterapiya və sair üçün çox vəsait lazımdır. Ən vacibi onkoloji xəstəlikdən əməliyyat olunandan sonra onlara əlillik dərəcəsi də (II, III qrup) verilir. Xəstələr işlər var ki özləri yerinə yetirə bilmirlər, başqa bir insanın da onlara qulluq etməsi vacibdir. Buna görə onkoloji pasiyentlərə vəsait çox gedir".

Dünyada onkoloji xəstəliklərin müalicəsinə dövlət dəstəyi səhiyyə siyasətinin ən mühüm istiqamətlərindən biridir. Bir çox ölkə bu sahədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) “Milli Onkoloji Nəzarət Proqramları” adlanan modelinə əsaslanır. Bu proqramlar xərçəngin qarşısının alınması, erkən diaqnostika, müalicə, reabilitasiya və palliativ yardım mərhələlərini əhatə edir. Dövlətlər bu sistem vasitəsilə onkoloji xəstələrə kompleks şəkildə yardım göstərməyə çalışırlar.

Ən geniş yayılmış təcrübələrdən biri onkoloji dərmanlara və müalicə vasitələrinə çıxışın dövlət tərəfindən təmin edilməsidir. Bir çox ölkə bu məqsədlə dərmanların qiymətlərinin tənzimlənməsi, generik və biosimilar preparatların bazara çıxarılması, eləcə də dərman təchizatı zəncirinin möhkəmləndirilməsi istiqamətində addımlar atır. Məsələn, ATOM (Access to Oncology Medicines) təşəbbüsü bu sahədə qlobal səviyyədə fəaliyyət göstərərək, xərçəng xəstələrinin həyat qurtaran dərmanlara əlçatanlığını artırmaq üçün 100-dən çox ölkədə layihələr həyata keçirir.

Bundan əlavə, Beynəlxalq Atom Enerjisi Agentliyi (İAEA) və ÜST birgə proqramlar vasitəsilə ölkələrdə radioterapiya mərkəzlərinin yaradılması, mütəxəssislərin hazırlanması və texnoloji infrastrukturun gücləndirilməsi istiqamətində texniki yardım göstərir. Bu təşəbbüslər xüsusilə inkişaf etməkdə olan ölkələrdə müalicə imkanlarının genişlənməsinə mühüm təsir göstərir.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**



# Əsgərlərimizə şad xəbər - 2026-cı ildən...

## Hərbi qulluqçulara mobil cihaz və yeni nömrə verilməsi xidmətin keyfiyyətinə necə təsir edəcək?

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Azercell Telekom MMC arasında əsgərlər üçün xüsusi rabitə imkanlarının yaradılması məqsədilə əməkdaşlıq memorandumu imzalanıb. Bu tərəfdaşlıq çərçivəsində “Azercell” ölkəmizin müdafiə qüvvələrinin üzvlərinə dəstək məqsədilə “Əsgərcell” adlı xüsusi təklif təqdim edəcək.**

Təşəbbüs əsgərlərin xidmət dövründə ailə üzvləri və yaxınları ilə etibarlı və təhlükəsiz əlaqə saxlamasına imkan yaradacaq. 2026-cı ildən etibarən qüvvəyə minəcək “Əsgərcell” təklifi çərçivəsində əsgərlərə xüsusi şərtlər ilə mobil cihaz və yeni nömrə təqdim olunacaq. Həmçinin, istənilən 5 nömrəni “ağ siyahı”ya əlavə etmək imkanı veriləcək və yalnız həmin nömrələrlə qarşılıqlı zənglər həyata keçirmək mümkün olacaq. Eyni zamanda, təcili yardım, polis və yanğınsöndürmə kimi zəruri xidmət nömrələrinə də zənglər əlçatan olacaq.

Rabitə təhlükəsizliyini qorumaq və xidmətin təyinatına uyğun istifadəsini təmin etmək məqsədilə bu nömrələrdə SMS, internet, beynəlxalq və rouminq xidmətləri əlçatan olmayacaq. Əsgərlərə hərbi hissələrdə yaradılmış müvəqqəti satış məntəqələrindən cihaz və yeni nömrəni əldə etmək imkanı yaradılacaq. “Azercell” nümayəndələri qeydiyyat prosesini yerindəcə həyata keçirərək nömrəni aktivləşdirib, cihazı abunəçiyə təqdim edəcəklər.

“Əsgərcell” hərbi xidmətin keyfiyyətinə necə təsir edəcək?

Oxşar təcrübələr bir sıra ölkələrdə mövcuddur. Məsələn, Türkiyədə hərbi hissələrdə əsgərlərin ailələri ilə əlaqə saxlamaq üçün məhdudlaşdırılmış telefon kabinələri və xüsusi rabitə sistemləri tətbiq olunur. İsraildə təhlükəsizlik məqsədilə əsgərlərə yalnız müəyyən tətbiqlərə və rabitə növlərinə icazə verən xüsusi hərbi telefonlar təqdim edilir. Cənubi Koreyada da xidmət müddətində internetə və sosial şəbəkələrə çıxış ciddi şəkildə nəzarət altındadır, lakin əsgərlərə valideynləri və yaxınları ilə əlaqə saxlamaq üçün müəyyən vaxtlarda məhdud telefon istifadəsi imkanı verilir. Bu təcrübələr göstərir ki, hərbi rabitənin nəzarətli şəkildə təşkili həm təhlükəsizlik, həm də sosial sabitlik baxımından effektiv nəticələr verir.

Azərbaycanın bu istiqamətdə atdığı addım texnoloji yeniliklə təhlükəsizlik tələblərinin optimal şəkildə uzlaşdırılması baxımından müasir və məqsədyönlü təşəbbüs kimi qiymətləndirilə bilər. “Əsgərcell” layihəsi həm əsgərlərin rifahını artıracaq, həm də rabitə təhlükəsizliyinin qorunmasına töhfə verəcək. Bu təşəbbüs uzunmüddətli perspektivdə hərbi xidmətin səmərəliliyinə, intizamın möhkəmlənməsinə və ordunun daxili kommunikasiyasının daha müasir əsaslarda qurulmasına şərait yaradacaq.

Hərbi ekspert Emin Həsənli “Yeni Müsavat”a deyib ki, bu, əla təşəbbüsdür. Onun fikrincə, valideynlər övladları ilə əlaqə saxlamaq istəyir: “Əsgərlərin yaxınları var, onların da öz çevrəsindən uzaqlaşması indiki zamanda çətindir. Hətta həbsdə olan insanlar belə telefon vasitəsilə əlaqə saxlayırlar. Bu, indiki şərtlərə uyğundur. Dünyanın bir çox ölkələrində müəyyən imkanlar var ki, hərbçilər ailə üzvləri və yaxınları ilə telefonla əlaqə saxlasınlar. Məsələn, əsgər üçün maraqlıdır ki, ata-anasının, bacı-qardaşının, ailəsinin ad günlərini təbrik etsin, səsini eşitsin. Bu baxımdan çox önəmlidir”.

Ekspert əlavə edib ki, tətbiq edilən qadağalar da məlumdur: “O qadağalar xidmətə mane olur. Burada hərbi və dövlət sirri qorunmalıdır. Bu da detallı nəzərə alınacaq, bütün məsələlər təhlil olunacaq. Bircə məqsəd o olacaq ki, əsgər rahat ünsiyyət saxlasın. Bu rabitə vasitəsinin olmaması əsgərlərdə böyük çətinliklər yaradır. Çox təqdirəlayiq addımdır, vətəndaş məmnunluğu və xidmət üçün çox önəmlidir. Hətta deyərdim ki, bu, xidmətə müsbət təsir göstərəcək. Əsgər davamlı olaraq ünsiyyətdə olacaq, valideynin səsini eşitmək hər iki tərəf üçün çox önəmli haldır. Adı da rəmzi bir addımdır. Bu, doğru bir qərardır”.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Zəngəzur dəhlizində işlər sürətlənib - əməkdaşımızın gördükləri

## Naxçıvana quru yolla keçidin reallaşmasına lap az qaldı - Azərbaycan özünə aid hissəni tamamlayır

**Zəngəzur dəhlizinin açılması istiqamətində işlər çox sürətlə aparılır. Noyabrın 6-da Prezident Administrasiyası tərəfindən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Zəngilana təşkil olunan mediaturda bu prosesin şahidi olduq.**

Əvvəlcə Həkəri dəmiryol stansiyasına baş çəkdik. Bu stansiya Horadiz-Ağbənd dəmiryol xəttinin 67-ci kilometrində yerləşir və Zəngəzur dəhlizini əhatə edən 9 əsas stansiyadan biri hesab olunur.

"Yeni Müsavat" xəbər verir ki, hazırda stansiya ərazisində yolun üst quruluşu üzrə işlər tamamlanmaq üzrədir. Tikintinin yekunlaşması ilə bölgədə yük və sərnişin daşımalarında yeni mərhələnin başlanacağı gözlənilir.

Hazırda işçi qatarlarının hərəkəti yalnız bu stansiyaya qədər təmin olunur, növbəti hissələrdə isə yolun tam istismara verilməsi üçün son hazırlıqlar davam etdirilir.

Heç şübhəsiz ki, Zəngəzur dəhlizinin əsas mühüm hissələrindən biri Azərbaycan tərəfində həyata keçirilən layihələrdir. Hazırda Azərbaycanın cənub-qərb sərhədində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu və Horadiz-Ağbənd dəmir yolu icra olunur.

"Hazırda dayandığımız layihə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu birinci texniki dərəcələrə uyğun olaraq inşa edilir".

Bunu Zəngilan rayonunun Ağbənd qəsəbəsinə mediatur zamanı jurnalistlərə açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mütəxəssisi Ziyəddin Həsənov deyib.

O bildirib ki, yolun ümumi uzunluğu 123,6 kilometrdir: "Bu yolun 78,5 kilometrlik hissəsi 6 hərəkət zolağından ibarətdir. 45,1 kilometrlik hissəsi isə 4 hərəkət zolağından ibarətdir. Hərəkət hissəsinin eni 14 və 21 metr, torpaq yatağının eni isə 21,5 və 29 metr təşkil edir. Avtomobil yolu üzərində 8 ədəd qovşaq inşa edilib. 44 ədəd alt, 5 ədəd üst keçid, 314 ədəd müxtəlif diametrli qurğu inşa edilib. Tunellərin ümumi uzunluğu 12 kilometr təşkil edir. 3 tunel var. Bununla yanaşı layihə üzrə 24 körpünün tikintisi nəzərdə tutulub. Bu körpülərdən 23-nün tikinti işləri tamamlanıb. Bir körpüdə isə işlər davam edir".



"Avtomobil yolunun gələcəkdə ödənişli olması nəzərdə tutulur. Bu yola alternativ olaraq Horadiz-Cəbrayıl-Zəngilan yolu çəkilərək istismara verilib. Gələn ilin ikinci yarısında tikinti işlərinin yekunlaşdırılması planlaşdırılır", - deyə o bildirib.

"Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisinin birinci mərhələsi Horadiz-Yuxarı Mərcanlı-Şükürbəyli-Soltanlı mənzillərini əhatə edir".

Bu fikirləri də Zəngilan rayonunun Ağbənd qəsəbəsinə mediatur zamanı jurnalistlərə açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin Tikinti Layihələrinin İdarə Olunması Departamentinin tikinti meneceri Cavad Əlövsətov deyib.

O bildirib ki, bu mərhələ üzrə işlərin böyük hissəsi tamamlanıb və hazırda dəmir yolu vasitəsilə Araz İqtisadi Sənaye Parkına yük daşınması həyata keçirilir: "İkinci mərhələ Soltanlı-Qumlaq-Həkəri-Minçivan stansiyalarını əhatə edir. Bu mərhələ üzrə torpaq işləri və mühəndis qurğularının tikintisi davam etdirilir. Yolun relyefi və ərazinin hidrogeoloji xüsusiyyətləri nəzərə alınaraq, burada müxtəlif tipli körpülər və mühafizə edici bərkidici qurğular inşa olunub. Məhz bu mərhələdə Azərbaycanın ən uzun dəmir yolu körpüsü tikilib. Körpünün ümumi uzunluğu 771 metr, 23 aşırımlıdır".

C.Əlövsətov üçüncü mərhələ üzrə də işlərin aktiv şəkildə davam etdirildiyini qeyd edib. Torpaq işləri və mühəndis qurğuları, o cümlədən 3 ədəd tunel və 1 ədəd qalereyanın tikintisi aparılır. Tunellərdə tikinti və istiqlas işlərinin 71%-i artıq tamamlanıb. Dəmir yolu xəttinin 99-cu kilometrində yerləşən qalereya sahəsində ərazi dik və qaya süxurlarından ibarət olduğuna görə, süxur qopmalarının dəmir yolu xəttinə düşmə riski mövcuddur. Bu səbəbdən, məhz bu hissədə qalereya inşa edilib. Qalereyanın uzunluğu 108 metr, konstruksiyası isə monolit dəmir-betondan ibarətdir".

C.Əlövsətov bildirib ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin ümumi uzunluğu 110,4 kilometr, yan yollarla birlikdə isə 140,6 kilometr təşkil edir: "Hazırda 66 km uzunluğunda yolüstü konstruksiyaların quraşdırılması başa çatdırılıb. Ümumilikdə layihə üzrə fiziki işlərin icra səviyyəsi 68% təşkil edir".

"Layihənin yekun tamamlanma tarixi bir sıra texniki və təşkilati amillərdən asılıdır. Bu səbəbdən dəqiq tarix müəyyən edilməyib", - deyə o əlavə edib.

Məlumat üçün bildirək ki, Horadiz-Ağbənd dəmir və avtomobil yolları təkcə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi canlanması üçün deyil, bütövlükdə Azərbaycanın Zəngəzur dəhlizi konsepsiyasının reallaşması üçün əsas infrastruktur dayaqlarıdır: "Bu layihələr Azərbaycanın Naxçıvanla quru əlaqəsini təmin etməklə yanaşı, Türkiyəyə və oradan Avropaya yeni nəqliyyat marşrutu açır. Layihələrin tam başa çatmasından sonra Orta Dəhliz vasitəsilə illik 15 milyon ton ələvə yük daşınması mümkün olacaq. Bu, Azərbaycanın tranzit gəlirlərini artırmaqla yanaşı, ölkəni regionun əsas logistika qovşaqlarından birinə çevirəcək.

Son illər Cənubi Qafqazda geoiqtisadi mənzərə dəyişməkdədir. Azərbaycan bu prosesdə əsas təşəbbüskar kimi çıxış edir. Zəngəzur dəhlizi - yaxud beynəlxalq səviyyədə təqdim olunan adı ilə TRIPP ("Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu") artıq siyasi ideyadan real iqtisadi reallığa çevrilib.

Dəhlizin hüquqi təməli 2020-ci il üçtərəfli bəyanatının 9-cu bəndində qoyulub. Daha sonra ABŞ vasitəçiliyi ilə aparılan danışıqlarda layihə beynəlxalq konsorsium modelinə daxil edilib. Prezident İlham Əliyevin sözlərinə görə, Azərbaycan öz ərazisində gördüyü işlər 2026-cı ilin ortalarına qədər tamamlanacaq, əgər digər ölkələrdə də proses eyni sürətlə davam etsə, dəhliz 2028-ci ilin sonuna qədər tam açılacaq.

Azərbaycan paralel olaraq Araz koridoru adlanan alternativ marşrutu - Ağbənd-Kelalə körpüsünü də inşa edir. Bu körpü 2025-ci ilin sonuna qədər istifadəyə veriləcək və Bakı-Naxçıvan bağlantısını sığortalayan əlavə yol kimi çıxış edəcək.

Ərazidə aparılan işlər, icra olunan layihələr belə qənaətə gəlməyə imkan verir ki, Zəngəzur dəhlizi artıq kağız üzərində deyil - torpaq, beton və poladla qurulan reallıqdır. Relslər, körpülər, tunellər və magistrallar Azərbaycanın gələcək iqtisadi xəritəsini cızır. Bu layihə tam başa çatdıqdan sonra ölkə nəinki regionda, bütövlükdə Avrasiya nəqliyyat sistemində strateji tranzit mərkəzinə çevriləcək.

Bölgə həm dəmiryolu, həm də avtomobil yollarının bağlantısı baxımından hab rolunu oynayacaq. Azərbaycan bu gün Zəngəzur dəhlizinin açılması üçün üzərinə düşən vəzifələri dəqiqliklə icra edir. Burada söhbət həm də ondan gedir ki, ölkəmiz öz imzasına və vədinə sadiqdir. 2020-ci ilin 10 noyabr bəyanatı ilə bağlayan proses bu gün tam gücü ilə davam edir. Vətən müharibəsində tarixi Zəfər əldə edən Azərbaycan bölgədə yeni reallıqlar yaradıb. Bu reallığın əsas komponentlərindən biri isə Zəngəzur dəhlizinin və digər marşrutların açılmasıdır.

Qalib Azərbaycan bütün ambisiyalarını bir kənara qoyaraq, bu gün bölgənin inkişafı, Cənubi Qafqazın çiçəklənməsi üçün Ermənistana əl uzadır, üzərinə düşənləri dəqiqliklə icra edir. Horadiz-Ağbənd xəttində aparılan işlər, icra infrastruktur layihələri Zəngəzur dəhlizinin Azərbaycan hissəsinə düşən hissəsinin tez bir zamanda hazır olacağını göstərir.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**





YENİ MÜSAVAT
N 204 (8814) 8 noyabr 2025

**“Çelsi” ilə oyundan sonra “Qarabağ”ın prezidenti Tahir Gözələ sual ünvanlanıb ki, “Azərsun Arena”ya Qurban Qurbanovun adı verilə bilərmi? Klub rəhbəri də deyib ki, belə bir təşəbbüs olarsa, bunu dəstəkləyərəm".**

# Bu stadion Qurban Qurbanovun adını daşıyacaq?

## “Qarabağ”ın baş məşqçisinə heykəl qoyulması da təklif edilir - tanınmışlardan çağırış



Bu barədə Teleqraf.az yazıb.

Sayt ardınca sual edib: “Maraqlıdır, klub öz büdcəsinə sıfırdan tikdiyi stadion üçün kimdən təşəbbüs gözləməlidir? Bunu Tahir Gözəl etməyəcəksə, sinəsini önə verməyəcəksə, kim etməlidir? Əmin olun ki, Qurban Qurbanova eyni sual ünvanlansa, o, təvazökarlıqdan bu sualdan qaçmağa çalışacaq. Amma ömrünün 17 ilini bir kluba həsr edən, möcüzəvi nəticələrə imza atan bir adama bu dəyər vaxtında verilməlidir. Bu, Qurbanov üçün həm ağır məsuliyyət, həm də gözəl motivasiya olar... Azərbaycan futbolu üçün bu qədər ciddi işlər görən, bir çox uşaqların futbola yönəlməsinə səbəb olan, bu gün hər kəsin üzündə təbəssüm yaradan Qurban Qurbanov daha nə etməlidir? Çempionlar Liqasını qazanmasını gözləyirik?”

Qeyd edək ki, bu xüsusda İstanbulda (Başakşəhər) stadionunun Türkiyəyə Avropa üçüncülüyü və UEFA kubokunu gətirən tanınmış baş məşqçi Fatih Terimin adına olması xatırladılır.

Stadiona Qurban Qurbanovun adına verilə bilərmi?

Məlumat üçün bildirək ki, indiyə qədər bu məsələ bir neçə dəfə gündəmə gəlib. Xüsusilə, baş məqçiyə heykəl qoyulmasının vacibliyini tez-tez dilə gətirən şəxslərdən biri deputat Fazil Mustafadır. O, yenə də eyni fikirdədir.

Xüsusilə, “Çelsi” üzərində komandasına oynatdığı oyuna və qazandığı nəticəyə görə bunu Q.Qurbanovun bundan sonra hansı nəticə əldə etməsindən asılı olmayaraq, haqq etdiyini düşünür.

Deputat “Yeni Müsavat”a dedi ki, hətta Ağdamdakı stadionun Qurban Qurbanovun adına verilməsini təklif edib: “Çünki Azərbaycan futbolunu bu mərtəbəyə qaldıran bu məşqçidir. Türkiyədə də bu ənənə var. Niyə bu arena verilsin ki?! Hazır Ağdam stadionu onun adını daşısın. Orada böyük bir stadion salınırsa, elə Qurban Qurbanovun adına verilsin. Yaxud əksinə Bakıda arena stadionundan söhbət gedirsə, "Azərsun Arena" onun adını daşıya bilər. Məncə, bu da çox ədalətli bir qərar olardı. Çünki bu adam haqq edib. Ölkə futbolunu bu səviyyəyə qaldıran birinə Azərbaycan da öz dəyərini verməlidir".

Milli Məclisin daha bir təmsilçisi Aqil Abbas da bir müddət öncə Qurban Qurbanova heykəl qoyulsun çağırışları səslənən zaman bunları Yenisabah.az-a demişdi: “Ağdam camaatının əksəriyyəti yeni tikiləcək stadiona Allahverdi Bağırovun adının verilməsini istəyir:

“Keçmiş "İmarət" stadionu bərpa oldunduqdan sonra konsert və şənliklər üçün istifadə olunacaq və öz adını qoruyacaq. Bu planda da var. İşğaldan öncə futbol stadionu kimi fəaliyyət göstərsə də, artıq kütləvi tədbirlər üçün nəzərdə tutulub. Ağdamda 15 minlik yeni stadion və futbol akademiyası tikiləcək. Amma məsələ burasındadır ki, Ağdam camaatı yeni tikiləcək stadiona Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun adının verilməsini istəyir. Çünki o, “Qarabağ” klubunu yaradanlardan biridir. Komandaya kapitanlıq və baş məşqçilik edən məhz Allahverdi Bağırov olub".

Deputat Ağdamda Qurban Qurbanova heykəl qoyacaqlarını da diqqətə çatdırıb: “Mənim Qurban Qurbanova böyük hörmətim var. Bir müddət öncə mətbuatda yazmışdım ki, Qurban Qurbanovun sağlığında Ağdamda onun heykəlini qoyacağıq. Allah qoysa, stadion tikilsin, ondan sonra daha konkret danışarıq”.

Tanınmış idman yazarı Natiq Muxtarlı hesab edir ki, “Qarabağ” rəhbərliyi bu istiqamətdə heç kimi gözləmədən özü hərəkət etməlidir: “Heç şübhəsiz ki, Qurban Qurbanov nəinki ”Qarabağ"ın, bütün Azərbaycan futbolunun adına böyük iş görüb. Güman etmirəm ki, yaxın gələcəkdə onun nəticələrini başqa kimsə təkrarlaya bilsin.

Azərbaycan futbolunun, xüsusən də milinin acınacaqlı durumu fonunda “Qarabağ” xalq üçün milli qürura çevrilib. Bu gün azarkeşlər “Qarabağ”a həm də milli komanda kimi baxırlar. Bu baxımdan Qurbanovun haqqı, dəyəri verilməlidir. Hansısa stadionu onun şərəfinə də adlandırmaq olar və buna heç kim etiraz etməz. Hətta Ağdamda tikilən “İmarət” stadionunun tribunalarından birinə də Qurbanovun adını vermək olar.

Stadionun qarşısında “Qarabağ”ın əfsanələrinin, məsələn Allahverdi Bağırovun büstünü ucaltmaq olar. Bəs onun yanında Qurban Qurbanovun büstü niyə olmasın? Bağırov “Qarabağ”ın yaradıcılarındadır, Qurbanov da onu bütün dünyada məşhur edən məşqçidir.

Dəyərlərə sayğı mütləqdir. Qurban Qurbanov da “Qarabağ”ın, ümumilikdə Azərbaycan futbolunun dəyərlərindədir. Bəlkə də indi yox, gələcəkdə, Qurban Qurbanov “Qarabağ”dan ayrılanda klub rəsmiləri onun adının tarixdə qalması üçün kompleks qərarlar verəcəklər. Verməlidirlər də. Amma bunu bu gün də etsələr, kimsə etiraz etməz. İnsanlara gördüyü işə, yaşatdıqları qürura görə vaxtında qiymət verilməsi gözəl ənənədir. Əksər Avropa ölkələrində bu tendensiyadan istifadə olunur.

Hesab edirəm ki, nə qədər acınacaqlı durumda olsa belə, Azərbaycan futbolunun Şərəf Zalı yaradılmalıdır. O zalda yer ala biləcək xeyli dəyərlər var - Anatoli Banişevski, Ələkbər Məmmədov, Sergey Kramarenko, İqr Ponomaryov, Nazim Süleymanov, Vəli Qasımov, Qurban Qurbanov və başqaları.

“Qarabağ” rəhbərliyi heç kimdən təşəbbüs gözləməməli, özləri qərar verməlidir. Qurban Qurbanovun mövqeyini soruşmağa lüzum yoxdur. Onsuz da “yox” deyəcək".

**Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**



# Ən çox silah aldığımız ölkələr - ilk üçlükdə onlardır

**Bu gün, 8 noyabr - Zəfər Günü münasibətilə Bakıda keçiriləcək möhtəşəm hərbi parad təkcə ölkə ictimaiyyətinin deyil, həm də beynəlxalq medianın diqqət mərkəzindədir. Xüsusən də Rusiya mətbuatı Azərbaycan Silahlı Qüvvələrinin nümayiş etdirəcəyi yeni texnologiyalar və silah sistemlərini yaxından izləyir.**

Rusiyanın www1.ru saytı Bakıda keçiriləcək parad məşqlərindən bəhs edərək, burada “Tor-M2E” tipli zenit-raket sistemlərinin görüntüləndiyini yazıb. Qısa mənzilli taktiki hava hücumundan müdafiə kompleksi olan bu sistemlər istənilən hava şəraitində işləyə bilir və 10-15 km məsafədəki hədəfləri dəqiqliklə məhv etmək qabiliyyətinə malikdir.

Azərbaycan bu silah sistemlərini bir neçə il əvvəl Rusiyadan əldə edib. Rusiya KİV-lərinin bu dəfə “yeni satış” kimi təqdim etdiyi iddialar həqiqəti əks etdirmir - “Tor-M2E”lər artıq uzun müddətdir ki, ordumuzun arsenalındadır və Qarabağ Zəfərində də öz effektivliyini sübut edib.

Maraqlı məqam odur ki, Rusiya mətbuatı təkcə bu sistemlərə deyil, həm də Çin istehsalı “HQ-9B” zenit-raket komplekslərinə xüsusi diqqət çəkib. Bu silahlar 250-300 kilometr məsafədə, 14 Max sürətlə hərəkət edən hədəfləri belə vurmaq imkanına malikdir. “HQ-9B” eyni anda 8-10 hədəfi məhv edə bilir və Azərbaycanın hava hücumundan müdafiə sisteminin əsas sütunlarından biri hesab olunur.

Paradda həmçinin Belarus istehsalı modernləşdirilmiş “Şilka” zenit qurğuları və “TATRA” bazasında hazırlanmış döyüş modullu zirehli yük maşınları da nümayiş etdiriləcək. Bu, Azərbaycanın hərbi arsenalının tək bir mənbəyə bağlı olmadığını, əksinə, müxtəlif texnoloji məktəblərin sintezini həyata keçirdiyini göstərir.

Mövcud məlumatlara əsasən, Azərbaycan ordusunun əsas silah təchizatçıları arasında Türkiyə, İsrail və Pakistan ilk üçlükdə yer alır.

Türkiyə ilə hərbi-texniki əməkdaşlıq son illərdə yeni mərhələyə qədəm qoyub. “Bayraktar TB2", "Akinci" kimi pilotsuz uçuş aparatları, eləcə də “T-122 Sakarya” reaktiv sistemləri ordumuzun strukturuna daxil edilib.

İsrail Azərbaycanın hərbi modernləşmə prosesində xüsusi yer tutur. “Harop”, “LORA”, “SkyStriker” və digər ağıllı sistemlər 44 günlük Vətən müharibəsinin gedişatına ciddi təsir göstərmişdi.

Bu balanslaşdırılmış silah siyasəti Azərbaycanın həm Qərb, həm də Şərq hərbi sənaye məktəblərinin üstün cəhətlərindən faydalanmaq strategiyasını nümayiş etdirir.

Polkovnik Rövşən Məhərrəmov “Yeni Müsavat”a bildirib ki, Azərbaycan müxtəlif dövlətlərdən silah alır. Onun sözlərinə görə, silah bazarı gündən-günə genişlənir və satışa daha müasir silahlar çıxarılır: “Biz orduda türk modelini seçmişik və NATO sisteminə keçmişik. Buna görə də silahlanma o sistemə uyğun həyata keçirilir. Əlbəttə, köhnə, sovet dövründən qalma və Rusiyadan aldığımız silahları uyğunlaşdırırıq. Hazırda İsraildən, Türkiyədən daha müasir silahlar alırıq. Pakistanla son zamanlar qırıcı təyyarələrlə bağlı 4 milyarddan artıq müqaviləmiz var. Uçuş təyyarələri hərbi hava qüvvələrimizi daha gücləndirir.

Son zamanlar isə Çinlə bizim müqaviləmiz var. Çindən hava hücumundan müdafiə sistemləri və digər silahları alırıq. Qeyd edim ki, Azərbaycanın özü də silah istehsal edir. Türkiyənin istehsal etdiyi “Bayraktar”ları artıq Azərbaycan özü də istehsal edir. 2020-ci ildə biz PUA-lardan istifadə edirdiksə də, 5 il ərzində daha da inkişaf edib. Son zamanlar ölkəmiz daha da müasir silahlar əldə edir".

Ekspert qeyd edir ki, Azərbaycan son zamanlar Rusiyadan silah almır:"Rusiyanın da ayxşı silahalrı var. Əgər elə bir imkan düşsə, Azərbaycan əlbəttə, Rusiyadan da o silahları ala bilər. Hazırda isə Rusiya ilə silah alışı o qədər də aktiv deyil".

**Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

# Kremlin qorxulu röyası çin olur - Çin buna getsə...

## Rusiya neftinə qarşı məhdudiyyətlərin sərtləşməsi Azərbaycana təsir etməyə başlayıb

**ABŞ prezidenti Donald Tramp bildirib ki, sanksiyaların tətbiqi Rusiyanın neft ixracını azaldıb. O bunu Orta Asiya dövlət başçıları ilə görüş zamanı deyib: "Deyə bilərəm ki, Rusiyadan ixrac əhəmiyyətli dərəcədə azalıb".**

Bundan əvvəl isə Bloomberg Çinin neft emalı zavodlarının yeni sanksiyalar fonunda Rusiya neftinin tədarükündən imtina etməyə başladığına dair məlumat yayıb. Agentlik iddia edir ki, bəzi neft emalı zavodları ABŞ-ın ikinci dərəcəli məhdudiyyətlərindən qorxaraq alışları dayandırıb.

Amerika nəşrinin məlumatına görə, dövlətə məxsus nəhənglər Sinopec və PetroChina Co. artıq neft alışından imtina ediblər. "Çaydanlar" kimi tanınan kiçik şirkətlər də eyni addımı atıblar. Nəşrin məlumatına görə, onlar Çinin Shandong Yulong Petrochemical Co. şirkəti Böyük Britaniya və Aİ tərəfindən qara siyahıya salındıqdan sonra məhdudiyyətlərdən qorxurlar.

Təchizatın dayandırılması, sanksiyalar səbəbindən qiyməti kəskin şəkildə düşən premium ESPO xam neftinə (ESPO) də təsir edib. "Rystad Energy AS" konsaltinq şirkətinin hesablamalarına görə, ümumi tədarük gündə 400.000 barel azalıb ki, bu da Çinin Rusiyadan idxal etdiyi ümumi neftin təxminən 45 faizini təşkil edir.

Bloomberg qeyd edir ki, eyni zamanda, sanksiyalar Rusiya üçün yalnız itkilərə səbəb olmayıb: Qara siyahıya salınmış Yulong tamamən Rusiya neftinə keçib. Məhdudiyyətlərdən əvvəl bu Çin neft emalı zavodu Kanada, Yaxın Şərq, Anqola, Braziliya və Rusiya da daxil olmaqla müxtəlif mənbələrdən neft alıb.

Rusiya Baş nazirinin müavini Aleksandr Novak Bloomberg-in xəbərini təkzib edib və qeyd edib ki, Çin ötən illə, demək olar ki, eyni həcmdə Rusiya karbohidrogenlərini almağa davam edir. O, "Rossiya-1" televiziya kanalına verdiyi müsahibədə bildirib ki, təkcə bu ilin ilk doqquz ayında Çin Rusiyadan 72 milyon ton neft alıb. Rusiyanın və Çinin ötən ilə dair statistik göstəriciləri baş nazir müavininin yumşaq desək, yalan danışdığını göstərir. Belə ki, Çin Statistika İdarəsinin məlumatına görə, 2024-cü ilin 9 ayında Rusiyadan 80,601 milyon ton neft alaraq, bunun üçün 47,5 milyard dollar ödəyiblər. Bu isə o deməkdir ki, bu ilin yanvar-sentyabrında Çin Rusiyadan neft alışını miqdar



baxımından 8,6 milyon ton, yaxud 10,7 faiz azaldıb. Üstəlik, Bloomberg oktyabr ayındakı ixracdan, Novak isə yanvar-sentyabrdakı ixracdan bəhs edir.

Rusiyanın "Kommersant" nəşri Qiymət İndeksi Mərkəzinin (PIC) hesabatına istinadən xəbər verir ki, oktyabr ayında Rusiya neft ixracı aylıq müqayisədə 1,2 faiz azalaraq 440 min tona düşüb. Rosneft və Lukoyl-a qarşı ABŞ-ın yeni sanksiyaları isə hələlik bu göstəriciyə əhəmiyyətli təsir etməyib. Nəşrin məlumatına görə, məhdudiyyətlərin təsiri 21 noyabrdan sonra, bu şirkətlərlə əməliyyatlar üçün icazənin müddəti bitdikdən sonra özünü göstərə bilər.

Bundan əlavə, Böyük Britaniya və ABŞ-ın Rosneft və Lukoyl-a tətbiq etdikləri sanksiyaların da təsiri hiss olunmağa başlayır. Xüsusilə ABŞ sanksiyaları Hindistan və Çinin Rusiya neftinin alışını azalmasına səbəb olur ki, bu da Moskvanı rekord endirimlərlə ticarət etməyə məcbur edir.

Asiyada Rusiyanın Urals markalı xam neftinin qiyməti beynəlxalq etalon Brent ilə müqayisədə son bir ildə ən aşağı səviyyəyə düşüb. Bu, Hindistan və Çinin ən böyük neft emalı zavodlarının Rusiya xam neftinin emalını azaltması ilə bağlıdır. Reuters xəbər verir ki, sanksiyalara görə Urals və Brent markalı xam neft arasındakı qiymət fərqi 2 dollar daha artıb. Nəticədə, dekabr ayı üçün çatdırılan Rusiya xam nefti təxminən 4 dollar əlavə endirimlə satılır. Bu, son bir ildə ən əhəmiyyətli endirimdir. Hazırkı endirimlər 2022-ci ildəki kimi kəskin olmasa da, barel üçün 8 dollara çatdığına görə yenə də Rusiyanın neft gəlirlərinə təzyiqi artırır.

Çinin dövlətə məxsus neft korporasiyaları da dəniz yolu ilə daşınan Rusiya neftinin alışını müvəqqəti olaraq dayandırmaq qərarına gəliblər. Nəticədə, ESPO Blend xam nefti artıq Çin limanlarında endirimli qiymətə satılır. Reuters agentliyinin məlumatına görə, Rusiya neftinin ən böyük iki alıcısı olan Hindistan və Çin şirkətlərinin birgə hərəkətləri, Rusiya neftinin əhəmiyyətli həcminin alıcı tapmamasına səbəb ola bilər.

Hazırda Asiyada Rusiya neft bazarı iki seqmentə bölünüb. Sanksiyalara məruz qalmayan şirkətlər tərəfindən istehsal edilən neft daha yüksək qiymətə satılır. Sanksiyalı təchizatçılar və ya tankerlərlə əlaqəli neft həcmləri isə əhəmiyyətli endirimlərlə satılır.

Rusiya neftinə qarşı məhdudiyyətlərin sərtləşməsinin Azərbaycana faktiki təsiri başlayıb. Belə ki, Rusiyanın enerji şirkəti Lukoyl Xəzər dənizindəki yataqlardan çıxardığı xammalın Bakıya ixracını dayandırıb.

Reuters agentliyinin məlumatına görə, Lukoyl noyabr ayından etibarən bütün neft həcmini Mahaçqalaya yönləndirəcək. Şirkət bu qərarı ABŞ və Böyük Britaniyanın tətbiq etdiyi sanksiyalarla əlaqələndirib.

Sanksiyalar nəticəsində Lukoyl xaricdə fəaliyyətində ciddi çətinliklərlə üzləşib. Artıq Bakıya daşınan bütün aylıq həcmin - təxminən 130 min tonun - Rusiya limanına yönləndiriləcəyi açıqlanıb.

Məlumata görə, bu ay Mahaçqalaya 30 min ton neft çatdırılacaq. Oradan xammal Novorossiysk limanı vasitəsilə ixraca göndəriləcək.

Qeyd edək ki, Lukoyl şirkəti Azərbaycanda "Şahdəniz" layihəsində və qaz ixrac boru sistemindəki layihələrdə 20 faizə yaxın paya malikdir. ABŞ sanksiyalarından sonra şirkət Azərbaycan da daxil olmaqla, xaricdəki bütün aktivlərini satışa çıxardığını açıqladı. Az sonra isə aktivlər üçün Gunvor Group-dan əlverişli təklig aldığını, ABŞ icazə verərsə, bütün xarici aktivlərini ona satacağını elan etdi. Lakin noyabrın 6-da ABŞ Maliyyə Nazirliyi Ukraynadakı münaqişə həll olunana qədər Gunvor şirkətinə biznes aparmaq və mənfəət əldə etmək üçün lisenziya vermək niyyətində olmadığını açıqladı. Nazirlik xatırladıb ki, ABŞ prezidenti Donald Tramp Ukrayna münaqişəsinə tez bir zamanda son qoyulmasının vacibliyini bildirib. Bu baş verənə qədər Gunvor "heç vaxt fəaliyyət göstərmək və mənfəət əldə etmək üçün lisenziya almayacaq". Nazirlik əmindir ki, Gunvor Rusiya tərəfindən idarə olunur.

Qeyd edək ki, Gunvor Vladimir Putinin yaxın adamı olan Gennadi Timçenko tərəfindən yaradılıb. 2014-cü ildə Krımın işğalından sonra Timçenko sanksiya siyahısına salınıb, formal olaraq şirkətdən uzaqlaşıb. Lakin şirkətə nəzarəti özündə saxlayıb.

ABŞ Maliyyə Nazirliyinin açıqlamasından sonra Gunvor Group Lukoyl-un xarici aktivlərinin alınması üzrə təklifini geri götürdüyünü elan edib. Şirkətin "X" sosial şəbəkəsindəki hesabında yerləşdirilən açıqlamada qeyd olunub: "ABŞ Maliyyə Nazirliyinin "Gunvor" barədə bəyanatı tamamilə yalnış və həqiqətə zidddir. Gunvor hər zaman öz mülkiyyət strukturu və biznes fəaliyyəti barədə açıq və şəffaf olub, artıq on ildən çoxdur ki, Rusiyadan məqsədyönlü şəkildə uzaqlaşıb, sanksiyalara uyğun olaraq ticarəti dayandırıb, Rusiyadakı aktivlərini satıb və Ukraynada aparılan müharibəni açıq şəkildə pisləyib. Biz bu aydın anlaşılmazlığın aradan qaldırılması imkanını alqışlayırıq. Bu müddətdə Gunvor Lukoyl-un beynəlxalq aktivlərinin alınması üzrə təklifini geri götürür".

Qeyd edək ki, Lukoyl-un sanksiyalar səbəbindən maliyyə vəziyyətinin pisləşməsi onun Azərbaycandakı layihələrə maliyyə ayırmasının qarşısını alacaq. Bu isə layihələrin əməliyyat məsrəflərinin qarşılanması sahəsində müəyyən çətinliklərə səbəb ola bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Nazir müavini: "Vergi güzəştlərinin ləğvindən söhbət getmir"




**Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərə aydınlıq gətirilib.**

Report xəbər verir ki, bunu iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Regional məsələlər komitələrinin dünən keçirilən birgə iclasında bildirib.

Onun sözlərinə görə, bütün dünyada, o cümlədən Azərbaycanda vergi güzəştləri müəyyən müddətdə nəzərdə tutulur: "Azərbaycanda gəlir vergisi güzəşti 7 illik müəyyən olunmuşdu. Bu müddət başa çatdı. Onun əvəzinə, vergi güzəştinin yeni növü gətirilir. Belə ki, əmək haqqısı 2500 manata qədər olan insanlar 14 % gəlir vergisi verməli idilər. Amma gələn ildən bu, 3 % olacaq. Ölkədə əməhaqqısı 2500 manata qədər olan kifayət qədər çox insan var. Odur ki, 3 % böyük göstərici deyil. Buna görə də bu istiqamətdə maarifləndirməni genişləndirmək lazımdır".

YENİ MÜSAVAT
N 214 (8814) 8 noyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# "Ana aliment ödəməz" ifadəsi keçmişdə qalır

## Sosioloq: "Ailədə məsuliyyət təkcə kişinin deyil, qadın da hüquqi öhdəlik daşıyır"

**Azərbaycanda son illərdə ailə münasibətləri və məhkəmə qərarları ilə bağlı statistik göstəricilər cəmiyyətdə yeni sosial tendensiyaların formalaşdığını göstərir. Onlardan biri də aliment ödəyən qadınların sayının artmasıdır. Ədliyyə Nazirliyinin məlumatına görə, hazırda ölkədə təxminən 2800 qadın aliment ödəyir. Bu rəqəm bir çoxları üçün təəccüblü səslənsə də, əslində ailə institutunda və cəmiyyətin sosial strukturunda baş verən dəyişikliklərin bariz göstəricisidir.**

Rəsmi məlumatlara əsasən, alimentlə bağlı məhkəmə qərarlarının sayı son illərdə davamlı artım meyli göstərir - 2020-ci ildə 18 288, 2021-ci ildə 20 619, 2022-ci ildə 17 621, 2023-cü ildə 20 993, 2024-cü ildə isə artıq 23 327 qərar qeydə alınıb.

Bu, təkcə boşanma hallarının çoxalmasından xəbər vermir, həm də valideyn məsuliyyətinin hüquqi tənzimlənməsinin daha geniş tətbiqinə işarədir. Digər tərəfdən, bu rəqəmlər göstərir ki, Azərbaycanda ata tək uşaq böyüdən ailələrin sayı da getdikcə artır və nəticədə qadınların aliment ödəməsi halları daha çox müşahidə olunur.

### Bəs aliment ödəyən qadınlar kimlərdir?

Ənənəvi olaraq Azərbaycanda aliment anlayışı "atanın uşağa ödədiyi vəsait" kimi qəbul olunub. Lakin reallıq dəyişib, qadınların da aliment ödəməsi artıq hüquqi və sosial gerçəklikdir.

Bu hallar əsasən aşağıdakı situasiyalarda baş verir:

-Məhkəmə qərarı ilə uşağın atada qalması. Bəzi boşanma proseslərində məhkəmə uşağın rifahını, təhsilini və yaşayış şəraitini nəzərə alaraq, onu atanın himayəsinə verir.

-Ananın xaricdə yaşaması və ya maddi baxımdan daha imkanlı olması. Belə hallarda məhkəmə valideynlər arasında gəlir fərqini əsas götürərək aliment öhdəliyini ananın üzərinə qoyur.

-Valideynlər arasında razılaşma əsasında. Bəzən tərəflər öz aralarında razılaşır ki, uşağın gündəlik xərclərini kim qarşılayacaq, və bu zaman qadın könüllü şəkildə aliment ödəməyə razı olur.

Beləliklə, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə görə, aliment uşağın saxlanması üçün təyin olunan vəsaitdir və onu hansı valideyn uşağı saxlamırsa, o ödəməlidir.

Hazırda alimentin minimum məbləği 246 manatdır. Uşaq kimdə qalırsa, aliment həmin valideynə ödənilir.

Əgər bir uşağa görə gəlirin dörddə biri, iki uşağa görə üçdə biri, üç və daha çox uşağa görə isə yarısı miqdarında tutulma tətbiq olunur. Bu, gəlirin mənbəyindən, əmək haqqı, pensiya, təqaüd və ya digər gəlir növlərindən asılı olmadan həyata keçirilə bilər.

Yəni qanun gender fərqi qoymur, alimentin kim tərəfindən ödənilməsi fərq etmir. Əsas məqsəd uşağın rifahının qorunmasıdır.



O da məlumdur ki, cəmiyyətdə bu məsələyə münasibət hələ də birmənalı deyil. Bəziləri qadının aliment ödəməsini gender bərabərliyinin təzahürü kimi qiymətləndirir, yəni ailə münasibətlərində kişi və qadın eyni hüquq və öhdəliklərə malikdir. Digər tərəfdən, bir çoxları bu vəziyyəti ənənəvi ana obrazı ilə zidd görür. Azərbaycan ailə modelində ana adətən uşağın tərbiyəçisi, emosional dayağı kimi qəbul olunur. Buna görə də "ananın aliment ödəməsi" ifadəsi hələ də ictimaiyyətin bir hissəsi üçün "adi" səslənmir. Lakin sosial dəyişikliklər bu stereotipləri tədricən aradan qaldırır.

Sosioloqların fikrincə, bu, sosial təkamülün göstəricisidir. Artıq qadınlar təkcə ailə daxilində deyil, ailədən sonra da hüquqi məsuliyyət daşıyır. Yəni "ana" və "ata" anlayışları hüquqi baxımdan eyni səviyyədə qiymətləndirilir.

Son illərdə qadınların əmək bazarında fəallığının artması, iqtisadi müstəqillik qazanması və sosial statusunun yüksəlməsi bu tendensiyanı gücləndirir. Qadın artıq yalnız ev işləri ilə məşğul olan şəxs deyil, o, ailə başçısı, gəlir sahibi, bəzən isə hüquqi öhdəlik daşıyan tərəf kimi çıxış edir.

Bu, həm də gender bərabərliyinin hüquqi praktikada öz əksini tapmasıdır. Cəmiyyətin qadına münasibətində "zəif cins" stereotipi tədricən yerini "bərabərhüquqlu tərəf" anlayışına verir.

Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyev "Yeni Müsavat"a danışıb. Sosioloq da qeyd edib ki, qanuna əsasən, uşaq kimdə qalırsa, yəni hansı valideynin himayəsində olursa, həmin valideynə aliment ödənilməlidir:

"Məlum olduğu kimi, emosional bağlılıq və qida təhlükəsizliyi məsələlərinə görə uşaqlar daha çox ananın yanında qalır. Buna görə də uzun illər ərzində alimenti əsasən kişilər ödəyiblər. Azərbaycanda cəmiyyət kişi mərkəzli, ənənəvi dəyərlərə əsaslandığı üçün ailənin maliyyə dayanıqlılığı və maddi təminatı əsasən kişinin üzərində olurdu. Bu səbəbdən bir qayda olaraq aliment ödəyən tərəf də kişi idi.

Eyni zamanda, kişi mərkəzli cəmiyyətin yaratdığı stereotiplər də mövcuddur: "Qadın aliment ödəməz", "O kişi ki, qadından aliment alır, o, artıq kişi sayılmaz" və bu kimi yanaşmalar. Məhz bu səbəbdən cəmiyyətdə qadınların aliment ödəməsi faktı bəzən qəribə qarşılanır.

Lakin Azərbaycan hüquqi və dünyəvi dövlətdir. Qanun qarşısında qadın və kişi bərabərdir. Buna görə də fərq etmir, uşaq hansı valideynin yanında qalırsa, digər tərəf aliment ödəməyə borcludur. Əsas məqsəd uşağın təmin olunmasıdır. Bu baxımdan hesab edirəm ki, burada qəribə heç nə yoxdur".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Ekspertdən toylarla bağlı ailələrə xəbərdarlıq

## Eyyub Hüseynov: "Bəy-gəlin tərəfini şadlıq sarayının təmizliyi maraqlandırmır"

**Paytaxtdakı şadlıq saraylarında mənşəyi məlum olmayan ətlər aşkarlanıb. Bu barədə Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Bildirilib ki, aparılan nəzarət tədbirləri zamanı bəzi ictimai iaşə müəssisələrində və şadlıq saraylarında mənşəyi məlum olmayan, eləcə də baytarlıq arayışı və ya baytarlıq şəhadətnaməsi olmayan ət məhsullarının istifadəsi faktları aşkarlanıb.**

Həmin ətlərin konkret hansı şadlıq saraylarında qonaqlara verildiyi açıqlanmayıb. Bəs, bu ətlər hansı şadlıq evlərində qonaqlara təqdim edilib? Bakıda fəaliyyət göstərən şadlıq saraylarından birinin administratoru Sarvan Abdullayev bildirib ki, hazırda işlədiyi məkanda ət və ət məhsullarının hamısı sertifikatlıdır və yerli heyvanların ətləridir. O, həmçinin qeyd etdi ki, xüsusilə son günlərdə şadlıq evlərinə, o cümlədən onlara xaricdən gətirilən ətlər təklif edilir. Bu arada, AQTA-dan o da bildirilib ki, hazırda Agentlik ölkə üzrə ictimai iaşə obyektlərində və şadlıq saraylarında nəzarət tədbirlərini gücləndirib. Qanunvericiliyin tələblərinə əməl etməyən müəssisələr barəsində inzibati tədbirlər görülür. Eyni zamanda, Agentlik istehlakçıları heyvan mənşəli ət məhsulları alarkən və ya ictimai iaşə müəssisələrində istehlak edərkən, müvafiq baytarlıq sənədlərinin mövcudluğunu tələb etməyə çağırır.

Şadlıq sarayları ilə bağlı AQTA tərəfindən son aylarda dəfələrlə monitorinqlər aparılıb, nöqsanlar aşkarlanıb və bu barədə ictimaiyyətə məlumat verilib. Bundan əvvəl də şadlıq saraylarında mənşəyi naməlum ətlərdən istifadə edildiyi, mətbəxlərdə anti-sanitar vəziyyət hökm sürdüyü bildirilib. Görünən budur ki, şadlıq saraylarının rəhbərlərini yalnız maddi qazanc maraqlandırır, hər gün artan toy qiymətləri müqabilində keyfiyyətli qida təqdim edib, keyfiyyətli xidmət göstərməyi lazım bilmirlər. Xüsusən hazırda mal-qara arasında dabaq xəstəliyinin yayıldığı bir vaxtda baytar nəzarətindən keçməmiş, yoxlanmamış, sertifikatı olmayan ətlərdən istifadə etmək təhlükəlidir və bunun ciddi fəsadları ola bilər.



Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Sherg.az-a açıqlamasında qeyd etdi ki, ictimai iaşə obyektlərinin sanitar-texniki, eləcə də sanitar-gigiyenik normaların pozulması və nöqsanların aradan qaldırılmamasında əhalinin də "payı" var:

"Toy evini, bəy-gəlin tərəfi seçdikləri şadlıq sarayının təmizliyi, sanitar normalara nə dərəcədə riayət edildiyi heç vaxt maraqlandırmır. Toy sahibləri ancaq menyunu müzakirə edir, menyu qiymətləri ilə maraqlanır, hansı yeməyi ixtisar edək, hansını əlavə edək, artıraq, süfrəyə nə düzüləcək, necə düzüləcək. Bundan başqa toy sahibləri başqa heç bir şeylə maraqlanmır. Soruşurlar, ət hardandı? Administrator deyir, Beyləqandan, Tərtərdən, Bərdədən. Toy sahibi də sevinir. Amma düşünmür, ağlının ucundan da keçirmir ki, ətin baytar nəzarətindən keçdiyinə dair sənəd tələb etsin, sertifikata baxsın. Nə deyirlər, ona inanır. Əlbəttə, şadlıq sarayının rəhbərliyi vicdanlı adam, vicdanlı sahibkar olmalıdır, keyfiyyətsiz, yoxlanmamış ət məhsulundan istifadə etməməlidir. Bu, öz yerində. Bəs şadlıq sarayına ətək-ətək pul tökən şəxs niyə maraqlanmır pulu nəyə xərcləyir, nəyə sərf edir? Bəlkə elə bu ətlər xəstə heyvan ətidir? Fərqinə varmırlar. Toy edənlə şadlıq sarayı inzibatçısı arasındakı söhbətin əsas məzmunu masaya nələr veriləcək, menyu neçəyədi, nəyi menyudan çıxarmaq olar ki, qiymət bir az aşağı düşsün, buna bənzər məsələlər olur. Toy edənin mətbəxə baxış keçirməsi, qidaların, ərzağın saxlandığı yerə baxması, nadir hallarda baş verən hadisədi, bəlkə də ümumiyyətlə, belə hal baş vermir. Ona görə də toylarımızda zəhərlənmə halları tez-tez baş verir. Çünki qida təhlükəsizliyi normalarına riayət edilmir, vətəndaşlar da bu barədə bilgili deyillər, tələb etmirlər. İstehlakçılar hüquqlarını bilmir. AQTA müraciət edib vətəndaşlara ki, heyvan mənşəli ət məhsulları alarkən və ya ictimai iaşə müəssisələrində istehlak edərkən, müvafiq baytarlıq sənədlərinin mövcudluğunu tələb etsinlər. Heç olmasa, indiki zamanda, dabaq xəstəliyinin yayıldığı, təhlükə olduğu bir vaxtda insanlarımız diqqətli olsunlar, sağlamlıqlarına məsuliyyətlə yanaşsınlar, ət kəsimi, ət məhsullarının satışı ilə bağlı qanunsuzluğun baş alıb getməsinə göz yummasınlar. Bu, ilk növbədə bizim özümüzə lazımdır. Öz sağlamlığımız üçün vətəndaş məsuliyyətini dərk etməliyik".

YENİ MÜSAVAT

Son səhifə

N 204 (8814) 8 noyabr 2025

Noyabr

## Bunları bilirsinizmi?

Ən az 8 saat yatmağınız vacib hesab edilir. Bunun üçün sizin aşağıdakı tövsiyələrə əməl etməyiniz lazımdır:

* Hər gecə yatmamışdan qabaq üzünüzü yuyun, dişlərinizi fırçalayın, işıqları söndürün.

* Əgər evdəsinizsə, yuxunuz qəfildən gəlirsə, mütləq həmin an bütün işlərinizi buraxıb yatın. Əks halda, gecəni narahatlıqla və gec yata bilərsiniz. Bu da sizin üçün yaxşı olmaz.

* Yeni yuyulmuş yastıq üzü və yataq dəslərindən istifadə edin. Belə olan halda, gecə rahat dönə və sakit yata bilərsiniz. Bundan başqa, yatmazdan öncə otağınıza bir az ətir vurun.

* Saatı olduğunuz otaqda saxlamayın. Saatın səsi sizi narahat etməmək üçün və gecəyarı yuxudan oyanmış olduğunuz halda görüb əsəbiləşməməyiniz üçün onu gözünüzdən kənar bir yerə qoyun.

* Yastığınızı qabardılmış vəziyyətə salın. Bu, rahat yuxuya getməyə kömək edir.

* Düzgün yastıq seçin. Yastıq yumşaq olmalıdır, ancaq çox yüksək olmalı, boynunuzu dəstəkləməli şəkildə dayanmalıdır.

* Pəncərələrinizə qalın pərdə taxın. Hətta çöldəki işıqların yanması belə sizin yatmağınıza mane ola bilər.

* Yataq otağınızı təmiz saxlayın və rahatlayıcı rənglərdən istifadə edin. Otaqda elə rənglər olmalıdır ki, insanı yuxuya tez apara bilsin.

* Yatmadan öncə bir ovuc çərəz, ya da meyvə yeyin. Bunlar yuxunuzun tez gəlməyinə yaxşı təsir bağışlayacaq. Ondan əlavə bir stəkan ılıq süd də içə bilərsiniz.

* Yataqda olarkən gündəliyinizə 10 dəqiqə vaxt ayırın. Gün ərzində yaşadığınız hadisələr, hiss etdiyiniz duyğuları yazın ora, beləcə də yuxuya rahat getmiş olarsınız.



## Amerikalı fermerdən qəribə iddia: Axirətdə gördüklərini danışdı

**Amerikalı fermer Filip Xaşeyderin başına ağlagəlməz hadisə gəlib. Viskonsin ştatının sakini ştanqla məşq etdikdən sonra qəfil infarkt keçirib. O, cəmi altı dəqiqə ərzində ölməyi, dirilməyi və hətta axirəti belə hiss etdiyini iddia edir. Fermer bildirib ki, öldüyü zaman ruhunun bədənindən çıxdığını və təcili yardım briqadasının onu reanimasiyaya apardığını görürmüş: "Özümü o qədər rahat hiss edirdim ki, həkimlərə "narahat olmayın, hər şey qaydasındadır" deyə qışqırmaq istəyirdim".**

Daha sonra Filip ölümdən sonrakı həyat haqqında danışıb. O özünü "heç bir qorxunun, ağrının olmadığı heyrətamiz bir yerdə" tapdığını söyləyib: "Özümü nəhəng bir açıq havada tapdım və başa düşdüm ki, nə səma, nə ulduz, nə ay, nə qalaktikalar var. Məhz o zaman gördüm ki, yuxarı-aşağı hərəkət etməyə davam edirəm və bunun nə olduğunu düşünməyə çalışırdım. Mənə doğru hərəkət edən enerjili dalğaların üzərində üzdüyümü də hiss edirdim".

Həkimlər onun həyatını xilas edəndə, o, axirət dünyasına baş çəkmək təcrübəsinin təsadüfi olmadığını başa düşüb. Fermer başına gələn ağlagəlməz hadisədən ruhlanaraq, "Əbədiyyətdə altı dəqiqə" adlı xatirə kitabı yazıb.

## Fransada kişi bağında içərisində qızıl külçələr olan xəzinə aşkarladı



**Fransada Lion şəhərinin yaxınlığındakı Növill-sür-Son kommunasının sakini öz sahəsində ümumi dəyəri təxminən 700 min avro olan qızıl külçələr və sikkələrdən ibarət xəzinə aşkar edib. Oxu.Az xəbər verir ki, bu barədə "France Info" radiostansiyası məlumat verib. Qeyd olunur ki, tapıntı plastik paketlərə bükülmüş beş qızıl külçədən və çoxlu sayda qızıl sikkələrdən ibarətdir. Hakimiyyətin məlumatına görə, xəzinənin gizlədildiyi sahənin əvvəlki sahibi vəfat edib, buna görə də qiymətli əşyaları gizlədən şəxsin kimliyi naməlum olaraq qalır.**

## Gündə 5 saat yatmaq kifayət edir? - Alimlər açıqladı



**Əgər siz saat 23:00-00:00 arası yatıb səhər 04:00-05:00-da özünüzdən asılı olmadan oyanırsınızsa, bu, sadəcə vərdiş deyil, nadir genetik xüsusiyyətin göstəricisi ola bilər. Mütəxəssislərin fikrincə, bəzi insanlarda "qısa yuxu geni" adlanan mutasiya mövcuddur. Bu gen sayəsində onlar 4-5 saatlıq yuxudan sonra tam istirahət etmiş kimi oyanır, yorğunluq və diqqət pozğunluğu yaşamırlar.**

Belə insanlar adətən daha enerjili, məhsuldar və yaddaşlı olurlar. Onlar nə qəhvəyə, nə də gündüz yuxusuna ehtiyac duyur. Harvard Tibb Məktəbinin nevroloqu Elizabet Klerman bildirir ki, bu xüsusiyyət sonradan qazanılmır - insanlar bu genlə doğulurlar. Tədqiqatlara görə, dünya əhalisinin cəmi 1%-i bu "super yuxu geni"nə sahibdir.

## Araşdırma: Kartof qızartması diabet riskini artırır



**Yeni bir araşdırmaya görə, həftədə üç və ya daha çox porsiya kartof qızartması yemək tip 2 diabetə tutulma riskini artıra bilər.**

Milli.Az xarici mətbuata istinadən xəbər verir ki, Beynəlxalq tədqiqatçılar qrupu, o cümlədən Kembric Universitetindən bir qrup mütəxəssis, kartof istehlakı ilə tip 2 diabet riski arasındakı əlaqəni araşdırıblar.

Ümumilikdə, tədqiqat nəticəsində məlum olub ki, həftədə ən azı üç dəfə kartof qızartması yeyənlərdə bu xəstəliyə tutulma riski 20% artır. Lakin bu artım bişmiş, qaynadılmış və ya püre halında olan kartoflara şamil olunmur.

Diabetes UK təşkilatından doktor Faye Riley bildirib:

"Bu araşdırma göstərir ki, kartof və tip 2 diabet arasındakı əlaqə göründüyü qədər aydın deyil".

Tədqiqatçılar ABŞ-də 205,000-dən çox tibb işçisinin sağlamlığını izləyən tədqiqatların məlumatlarını təhlil ediblər.

İnsanların qidalanma vərdişləri haqqında dəfələrlə sorğular aparılıb və təxminən 40 illik müşahidə dövründə 22,000 tip 2 diabet halı qeydə alınıb.

## Davamlı stres xərçəng yaradır - Təsdiqləndi



**Uzunmüddətli stres orqanizmin müdafiə sistemini zəiflədir və immun hüceyrələrin xərçəng ocaqlarını tanımaq qabiliyyətini azaldır. Milli.Az xəbər verir ki, bunu Skandinaviya Sağlamlıq Mərkəzinin onkoloqu Sergey İvanov bildirib. Onun sözlərinə görə, bu vəziyyət mikroskopik şişlərin sürətlə böyüməsinə şərait yaradır.**

"Xroniki stress zamanı orqanizmdə kortizol hormonu davamlı şəkildə yüksək olur. Bu hormon T-hüceyrələrin və təbii killerlərin fəaliyyətini bloklayır. Həmin hüceyrələr infeksiyalara qarşı mübarizə aparmaqla yanaşı, bədəndə zədələnmiş və mutasiyaya uğramış hüceyrələri də məhv edir. Stress həftələrlə və ya aylarla davam etdikdə, bu müdafiə mexanizmi zəifləyir və nəticədə mikroskopik şişlər böyüməyə başlayır. İvanov qeyd edib ki, stress hormonlarının çoxluğu bədəndə zəif səviyyəli iltihaba və xroniki yorğunluğa səbəb olur. Bu da immun sistemin işini daha da çətinləşdirir.

Onkoloq deyib ki, bu vəziyyətin qarşısını almaq üçün sinir sisteminin gərginliyini azaltmaq vacibdir. Bunun üçün gün ərzində qısa fasilələr vermək, təmiz havada gəzmək, yüngül fiziki fəaliyyətlə məşğul olmaq, nəfəs məşqləri etmək və balanslı qidalanmaq tövsiyə olunur. Xüsusilə D vitamini, maqnezium və zülalın orqanizmdə kifayət qədər olması sinir və immun sisteminin sabitliyinə kömək edir. Mütəxəssis yatma və oyanma rejiminin sabit olmasının da mühüm rol oynadığını vurğulayıb. Altı saatdan az yuxu bədənin qoruyucu zülallarının azalmasına və kortizolun artmasına səbəb olur. Optimal nəticə üçün gündə ən azı yeddi saat yuxu məsləhət görülür.

İvanov sonda əlavə edib ki, əgər uzunmüddətli yorğunluq, yuxu pozğunluğu və ya təzyiq dəyişiklikləri müşahidə olunursa, həkimə müraciət etmək lazımdır. Tibbi müayinə hormon balansını yoxlamağa və bədənin bərpası üçün düzgün proqram seçməyə kömək edəcək.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.